

Milli azadlıqdan şirin nemət yoxdur!

# 1 Sentyabrda olaq 1-ci Partiyaya səs verək!




# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

13 avqust 2024-cü il, çərşənbə axşamı
№ 144 (6730)
Qiyməti 60 qəpik






## Azərbaycan - Mərkəzi Asiya dövlətləri:
## Möhkəm təməllər üzərində yeni əməkdaşlıq perspektivləri

Bax səh. 2

## Xalqın Yeni Azərbaycan Partiyasına sarsılmaz inamı partiyanın növbəti qələbəsini şərtləndirir

Bax səh. 6



Alfonso Dominqes
Olimpiya oyunları
Gümüş medal mükafatçısı



Bədii gimnastika üzrə qrup hərəkətləri komandası
Olimpiya oyunları beşincisi



Giorgi Meşvildişvili
Olimpiya oyunları
Bürünc medal mükafatçısı



Maqomedxan Maqomedov
Olimpiya oyunları
Bürünc medal mükafatçısı

Bax səh. 2

## 2 qızıl, 2 gümüş və 3 bürünc...
## Sizinlə fəxr edirik!

## Ermənistanın müharibə cinayətləri

İkinci Qarabağ Müharibəsinin 4-cü ildönümünə sayılı günlər qalıb. Həmin gün-27 sentyabr həm də şəhidlərimizin anım günü kimi qeyd edilir. Bundan başqa, 27 sentyabr Böyük Zəfərə gedən yolun başlanğıcıdır. Ona görə də bu tarix xalqımız üçün xüsusi əhəmiyyət kəsb edir. Çünki 44 günlük müharibənin yekununda təkcə Azərbaycanın ərazi bütövlüyü və suveren hüquqları bərpa olunmadı, həm də dünya daha bir faşist ideollogiyasından xilas oldu.

Cəmi 44 günə Azərbaycan nəinki, torpaqlarını işağaldan azad etdi, həm də Ermənistanın hərbi kapitulyasiyasına nail oldu. Təbii ki, bu qələbənin arxasında ordu-xalq, xalq-hakimiyyət birliyi dayanırdı. Bu qələbə üçün 3 mindən artıq qəhrəman soydaşımız canından, minlərlə soydaşımız sağlamlığından keçdi. Ordumuzun şücaəti, Ali Baş Komandanın qətiyyəti qarşısında aciz qalan Ermənistan bundan sonra Rusiyanın vasitəçiliyi ilə noyabrın 10-a keçən gecə üçtərəfli Bəyannaməni imzaladı.

Mövzu barədə "Yeni Azərbaycan"a danışan hərbi ekspert Ədalət Verdiyev bildirib ki, bu gün Azərbaycanın ərazi bütövlüyü və suveren hüquqları bərpa olunsa da, yaralarımız hələ də sağalmayıb: "1988-ci ildən başlayaraq, Qarabağda qanunsuz fəaliyyət göstərən erməni silahlı hərbi...

Bax səh. 8

## Ata qətlinin sirri

Monastırda rahiblərlə İvan Karamazov arasında maraqlı bir polemika baş verir. Söhbət İvanın yeni dərc olunmuş məqaləsindən düşür: gənc mütəfəkkir bu qənaətə gəlib ki, təbiət insanın boynuna başqalarını sevmək kimi bir öhdəlik qoymayıb, belə bir təbii qanun yoxdur. İvanın fikrincə, əbədiyyət yoxdursa, xeyir də yoxdur; əgər indiyə qədər yer üzündə sevgi deyilən bir anlayış, hiss olubsa, bu anlayış da, bu hiss də təbiətin hökmüylə yox, insanın öz ruhunun ölməzliyinə inanması sayəsində yaranıb. Bu inamı onun qəlbindən silsən, həmin andaca insanın başqalarına sevgisi, ümumən yaşamaq istəyi yoxa çıxacaq. Ölməzliyə inamı itəndən sonra insan üçün əxlaq, mənəviyyat anlayışı qalmayacaq, hər əməl ondan ötrü yolverilən, icazəli, məqbul olacaq - eqoizmdən tutmuş zalımlığa, qəddarlığa, qatilliyə qədər hər əməl. Həm də bütün bunlara nəinki rüsxət veriləcək, hətta başqasına əzab çəkdirmək ən zəruri, ən faydalı bir hal kimi təqdir olunacaq, qəhrəmanlıq sayılacaq.

Necə də Nitsşenin moizələrinə bənzəyir, eləmi? Yeri gəlmişkən, böyük alman filosofu Dostoyevskinin məhz mürtəce düşüncələrindən, onun mənfi qəhrəmanlarına yüklədiyi aqressiv ideyalardan təsirlənmişdi, daha xristianlığın təbliğatını aparan fikirlərindən yox...

Bax səh. 7



## Kriminalistikanın qızıl kəşfi

Bax səh. 8



## Qarşıdakı 3 ilə dair beynəlxalq proqnoz

Bax səh. 7

# Azərbaycan - Mərkəzi Asiya dövlətləri: Möhkəm təməllər üzərində yeni əməkdaşlıq perspektivləri

Son illərdə Azərbaycanın beynəlxalq miqyasda ölkəmizə və onun Liderinə böyük nüfuz qazandıran multiregional xarici siyasət kursunun əsas prioritetlərindən biri Türkdilli dövlətlərlə daha sıx əməkdaşlıq əlaqələrinin qurulmasından, müxtəlif istiqamətlərdə koordinasiyalı fəaliyyətlərin həyata keçirilməsindən ibarətdir. Bu kontekstdə respublikamızla Mərkəzi Asiyada yerləşən Türk dövlətləri arasında qarşılıqlı münasibətlərin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi xüsusi diqqət çəkir. O cümlədən əlaqələrdəki yeni istiqamətlər daha uğurlu perspektivlər vəd edir.

Təqdirəlayiq haldır ki, Azərbaycanda və bəhs olunan ]oğrafiyada yerləşən ölkələrdə əlaqələrin intensivləşməsinə həm dövlətlər səviyyəsində güclü siyasi iradə göstərilir, həm də buna cəmiyyətlərdə böyük istək var. Prezident İlham Əliyev avqustun 9-da Qazaxıstanın paytaxtı Astanada keçirilən Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündəki çıxışında ökələrimiz arasında əlaqələrin genişlənməsini şərtləndirən amillərə diqqət çəkib. “Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur. Xalqlarımızı çoxəsrlik tarix, mədəniyyət, din və ortaq dəyərlər birləşdirir”, - deyə dövlətimizin başçısı qeyd edib.



## Mütəmadi səfərlər ölkəmizin region dövlətləri ilə əlaqələrinin dinamikasını nümayiş etdirir

Hazırda dünya miqyasında dövlət başçıları arasında formalaşan dostluq münasibətləri bütövlükdə ölkələrin siyasətinə müsbət təsir göstərən bir trendə çevrilib. Bu baxımdan Prezident İlham Əliyevin Mərkəzi Asiyada yerləşən əksər ölkələrin rəhbərləri ilə dostluq əlaqələri qurması da təqdirəlayiq haldır. Dövlətimizin başçısının son illərdə Mərkəzi Asiya ölkələrində keçirilən yüksəksəviyyəli tədbirlərə fəxri qonaq qismində dəvətlər alması gözəl bir ənənəyə çevrilib. Prezident İlham Əliyevin Mərkəzi Asiyada yerləşən ölkələrə mütəmadi səfərləri, həmçinin regional təşkilatların tədbirlərində fəxri qonaq qismində iştirakı ölkəmizin region dövlətləri ilə əlaqələrinin dinamikasını nümayiş etdirir. Məsələn, təkcə son bir neçə ildə dövlətimizin başçısının Mərkəzi Asiya ölkələrində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin sammitlərində, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 7-ci Zirvə toplantısında, Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərində və digər tədbirlərdə iştirakı ölkəmizə və onun Liderinə göstərilən inamın ifadəsidir.

Eyni zamanda, dövlət başçılarının ikitərəfli qaydada səfərləri də intensivləşib. Son 2-3 il ərzində Prezident İlham Əliyev mütəmadi olaraq Mərkəzi Asiya dövlətlərinə, o regionda yerləşən ölkələrin rəhbərləri isə Azərbaycana səfərlər edirlər. Həmin səfərlər zamanı prezidentlər əziz qonaqlar kimi qarşılanır və onlar özlərini evlərindəki kimi rahat hiss edirlər. Öz növbəsində bu səfərlər əsnasında imzalanan sənədlər ölkələr arasında əməkdaşlığın genişləndirilməsi üçün möhkəm təməl rolunu oynayır. Qarşılıqlı səfərlərin statistikasından məmnunluğunu bildirən Prezident İlham Əliyev “Bu, son iki ildə mənim Mərkəzi Asiya ölkələrinə 16-cı səfərimdir. Həmin müddətdə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan olan həmkarlarım Azərbaycanı, ümumilikdə, 15 dəfə ziyarət ediblər”, - deyə vurğulayıb.



Ötən ilin noyabr ayında Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında münasibətlərin yüksək səviyyəsini əks etdirən daha bir hadisəyə şahidlik etdik. Belə ki, respublikamız BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın Zirvə görüşünə evsahibliyini məmnuniyyətlə öz üzərinə götürdü. Liderlərin də qatıldıqları bu mötəbər tədbirin Azərbaycanda keçirilməsi ölkəmizə marağın əyani təcəssümüdür. “Azərbaycan və Mərkəzi Asiya ölkələri beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirlər. Bu xüsusda, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı - SPECA-nı qeyd etmək istərdim. Ötən ilin noyabr ayında Bakıda keçirilmiş, SPECA-nın 25 illiyinə həsr olunmuş Zirvə görüşünün nəticələri əməkdaşlığımızın praktiki inkişafı baxımından əhəmiyyət kəsb edir. SPECA-nın Bakıda keçirilən Sammitində iştirak etdiklərinə görə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan prezidentlərinə bir daha təşəkkür edirəm”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Qarşıdan isə COP29 tədbiri gəlir. Dost ölkələrin liderlərinin növbəti görüş yeri yenə də Bakı olacaq. Artıq Prezident İlham Əliyev tərəfindən Mərkəzi Asiya ölkələrinin prezidentlərinə rəsmi dəvət məktubları göndərilib və şübhə yoxdur ki, onlar bu dəvəti qəbul edəcəklər. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan COP29-a sədrliyi çərçivəsində regionumuzda iqlim dəyişmələri ilə bağlı problemlərin həlli üçün Mərkəzi Asiya ölkələri ilə birgə təşəbbüsləri dəstəkləməyə hazırdır.

## Azərbaycanın haqq işinə dəstək

Bəhs olunan tədbirdə Prezident İlham Əliyev minnətdarlıq hissi ilə bildirib ki, Ermənistanın işğalından azad edilmiş Qarabağın bərpasına dəstək qardaşlıq münasibətlərimizin təzahürlərindən biridir. Ermənistan tərəfindən təxminən 30 illik işğal dövründə bu ərazilərdə 9 şəhər və yüzlərlə yaşayış məntəqəsi məhv edilib. İşğaldan azad olunmuş ərazilərdə hazırda genişmiqyaslı bərpa işləri aparılır. O cümlədən Mərkəzi Asiya ölkələri işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-yenidənqurma işlərinə töhfələrini davam etdirirlər. Bu baxımdan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb xüsusi vurğulanmalıdır. Xatırladaq ki, 2023-cü il avqustun 23-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak ediblər.

2024-cü il martın 12-də isə Qazaxıstan tərəfindən Füzulidə inşa edilən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışı olub. Növbəti təşəbbüs isə Qırğız Respublikasından gəlib. Dost ölkə Ağdamın Xıdırlı kəndində yeni orta məktəb binasının inşasına start verib. Dost ölkələrin qardaşlıq dəstəyini yüksək dəyərləndirən Prezident İlham Əliyev bildirib: “Ötən il Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan Mirzə Uluqbəy adına orta məktəbin, bu il isə Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışı olub. Həmçinin bu il Ağdam rayonunda Qırğızıstanın hədiyyəsi olan orta məktəb binasının təməlqoyma mərasimi keçirilib. Bu qardaşlıq dəstəyinə görə Özbəkistan, Qazaxıstan və Qırğızıstan prezidentlərinə təşəkkürümü bildirirəm”.

## Çoxvektorlu əməkdaşlığın mühüm istiqamətlərindən biri - nəqliyyat-logistika sahəsi

Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında siyasi dialoqun yüksək səviyyəsinə uyğun olaraq müxtəlif istiqamətləri əhatə edən əməkdaşlıq əlaqələri qurulub və yeni sahələr üzrə də potensial imkanlar araşdırılır. Məsələn, Prezident İlham Əliyevin vurğuladığı kimi, dünyada artan təhdid və çağırışlar ölkələrimiz arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da gücləndirilməsini tələb edir. Bu xüsusda, ötən ay Qazaxıstanda keçirilmiş və Azərbaycanın da iştirak etdiyi “Birləşdik-2024” beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimini xüsusilə vurğulamaq lazımdır. Həmçinin Azərbaycanın hərbi təhsil müəssisələrində Mərkəzi Asiya ölkələrindən olan müdavimlərin təhsil almaları bu sahədə münasibətlərin inkişafının göstəricisidir.

Bərpaolunan enerji sektoru ölkələrimiz arasında yeni əməkdaşlıq istiqaməti ola bilər. Həm Azərbaycanın, həm də Mərkəzi Asiya dövlətlərinin bərpaolunan enerji potensialı kifayət qədər böyükdür və tərəflər birgə əməkdaşlıq şəraitində bu potensialdan maksimum səmərə ilə istifadə etmək əzmindədirlər. Azərbaycan bərpaolunan enerji sahəsində Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıqda maraqlıdır. Bu ilin may ayında imzalanmış “Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi üzrə Əməkdaşlıq Memorandumu “yaşıl enerji” sahəsində əməkdaşlığımızda ilk addımdır.

Eləcə də, Qazaxıstan, Qırğızıstan və Özbəkistan ilə fəal şəkildə investisiya layihələri həyata keçirilir. Artıq Azərbaycan-Qazaxıstan, Azərbaycan-Qırğızıstan və Azərbaycan-Özbəkistan birgə investisiya fondları yaradılıb. Həyata keçirilən “Rəqəmsal İpək Yolu” layihəsi rəqəmsal infrastrukturun inkişafına və rəqəmsal təhlükəsizliyə töhfə verəcək.

Çoxvektorlu qarşılıqlı fəaliyyətin mühüm istiqamətlərindən biri də nəqliyyat-tranzit sahəsində əməkdaşlıqdır. Azərbaycan və Mərkəzi Asiya dövlətləri hazırkı geosiyasi reallıqlar şəraitində aktuallığı əhəmiyyətli dərəcədə artan Transxəzər marşrutunun (Orta Dəhliz) mühüm iştirakçılarıdırlar. Son illərdə dost ölkələrin koordinasiyalı fəaliyyətlərinin nəticəsi olaraq bu dəhlizin funksionallığı getdikcə artır. Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi sayəsində vaxtında görülən tədbirlər sayəsində Azərbaycan Şərqlə Qərb arasında mühüm qovşağa çevrilib. Ölkəmizin inkişaf etdirdiyi nəqliyyat-logistika şəbəkəsi, o cümlədən Ələt Dəniz Ticarət Limanının inşası və imkanlarının artırılması, gəmiqayırma zavodunun fəaliyyətinin genişləndirilməsi, ölkəmizin Xəzərdə ən böyük ticarət donanmasına malik olması Avropa ilə Asiya arasında daşımalar üçün olduqca vacib əhəmiyyət daşıyır. Azərbaycanın artan tranzit imkanları həmçinin Mərkəzi Asiya coğrafiyasında yerləşən Türk dövlətlərinin inkişafına da müsbət təsirini göstərəcək. Reallaşdırılan layihələrin önəmini diqqətə çatdıran Prezident İlham Əliyev vurğulayıb: “Bakı-Tbilisi-Qars dəmir yolunun yükaşırma qabiliyyətinin 1 milyon tondan 5 milyon tonadək artırılması, Ələt Beynəlxalq Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tonadək artırılması istiqamətində görülmüş işlər, Xəzər dənizində Azərbaycanın ticarət donanması üçün yeni gəmilərin sifariş edilməsi, eləcə də Mərkəzi Asiya ölkələrində infrastruktur layihələrinin həyata keçirilməsi Orta Dəhlizin praktiki cəhətdən önəmini daha da artırır”.

Daha bir mühüm məqam barədə bəhs etmək yerinə düşər. 2020-ci ildə Vətən müharibəsində Qarabağı və Şərqi Zəngəzuru erməni işğalından azad edən Azərbaycan bununla Türk dünyası ölkələri arasında coğrafi bağlantını da təmin etmək üçün gözəl imkan yaradıb. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda Zəngəzur dəhlizinin açılması ilə bağlı bəndin yer alması və gələcəkdə bu müddəanın yerinə yetirilməsi Türk dövlətlərini coğrafi baxımdan da bir-birinə bağlayacaq, Şərqdən Qərbə uzanan vahid marşrut xəttini formalaşdıracaq ki, bu da böyük bir coğrafiyada yüklərin rahatlıqla, qısa zaman kəsiyində və daha münasib qiymətə daşınmasına böyük töhfə verəcək.

*Mübariz ABDULLAYEV*

# 2 qızıl, 2 gümüş və 3 bürünc...

## Sizinlə fəxr edirik!

“Paris - 2024” 33-cü Yay Olimpiya Oyunlarının son günləri Azərbaycan idmançıları üçün uğurlu olub. Belə ki, onlar ölkəmiz adına daha üç medal - sərbəst güləşçi Maqomedxan Maqomedov bürünc, sərbəst güləşçisi Giorgi Meşvildişvili bürünc, bokusçu Alfonso Dominqes gümüş medal qazanıblar. Eyni zamanda, Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri komandası Paris Olimpiadasında tarixi nəticəyə imza atıb.

## Birinci vitse-prezidentin idmançılara təbrikləri

“Paris - 2024” 33-cü Yay Olimpiya Oyunlarında idmançılarımızın keçirdikləri görüşlər ölkəmizdə böyük diqqətlə izlənilirdi. Təbii ki, gərgin mübarizə şəraitində qazanılan hər uğura sevinirdik və bununla qürur duyurduq. Olimpiada günlərində Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva qızıl medal qazanan idmançılara telefon açaraq onları şəxsən təbrik etdilər. Eləcə də Mehriban xanım Əliyeva idmançılarımzın qazandıqları uğurlarla bağlı sosial şəbəkə hesabında ayrıca paylaşımlar etdi. Birinci vitse-prezident öz ənənəsinə sadiq qalaraq idmançılarımızın olimpiadanın son günlərində əzmkar mübarizə aparıb komandamızın medal sayını artırmalarına da sosial şəbəkə hesabında etdiyi yeni paylaşımlarla diqqət çəkib. Mehriban xanım Əliyeva paylaşımlarında sərbəst güləşçi Maqomedxan Maqomedovu bürünc, sərbəst güləşçisi Giorgi Meşvildişvilini bürünc, bokusçu Alfonso Dominqesi gümüş medal qazanmaları münasibəti ilə təbrik edərək onlara daha böyük uğurlar arzulayıb.

Eyni zamanda, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında bədii gimnastika üzrə qrup hərəkətləri komandasını Yay Olimpiya Oyunlarında tarixi nəticəyə imza atması münasibətilə təbrik edib. Birinci vitse-prezidentin bununla bağlı sosial şəbəkə hesabında etdiyi paylaşımında oxuyuruq: “Əhsən! Sizinlə fəxr edirəm! Əziz gimnastlar, sizin zəhmətiniz, mətanətiniz və ən yaxşı olmaq istəyiniz sayəsində əldə olunan tərəqqi göz qabağındadır! Məharətinizə, qələbə əzminizə və ən mürəkkəb elementləri zərifliklə yerinə yetirdiyinizə görə sağ olun! Sizə yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram! Sizi sevirəm!”.

Qızıl medal qazanan idmançılara edilən zənglər, bəhs olunan paylaşımlar Azərbaycanın dövlət başçısının, birinci vitse-prezidentin xaraktercə səmimi olduqlarının, eyni zamanda, Azərbaycan adına yazılan hər uğura necə böyük həssaslıqla yanaşdıqlarının ifadəsidir. İdman dünyada ölkəni və xalqı tanıdan ən güclü vasitələrdən biridir. Biz qürur duyuruq ki, idmançılarımız “Paris - 2024” - də Azərbaycanı yaxşı tərəfdən tanıtmağa, himnimizi səsləndirməyə, bayrağımızı ucaltmağa nail oldular.

## Medal sıralamasında ölkəmizin yekun mövqeyi

Artıq ölkələrin “Paris - 2024” - də hansı yerdə qərarlaşdıqları bəllidir. O cümlədən Azərbaycanın Yay Olimpiya Oyunlarında medal sıralamasındakı yekun mövqeyi bəlli olub. Olimpiadada 7 medal qazanan ölkəmiz Xorvatiya ilə birlikdə 30-31-ci yerləri bölüşdürüb.

Azərbaycan komandasının heyətində cüdoçular Hidayət Heydərov (73 kiloqram) və Zelim Kotsoyev (100 kiloqram) Olimpiya çempionu olublar, taekvondoçu Qaşım Maqomedov (58 kiloqram) və boksçu Alfonso Dominqes (92 kiloqram) gümüş, yunan-Roma güləşçisi Həsrət Cəfərov (67 kiloqram), sərbəst güləşçilər Maqomedxan Maqomedov (97 kiloqram) və Giorgi Meşvildişvili (125 kiloqram) isə bürünc medala sahib çıxıblar.

Bununla da Azərbaycan medal əyarına görə Tokio olimpiadasındakı nəticəsini yaxşılaşdırıb. İdmançılarımız 2021-ci ildə Yaponiya paytaxtında keçirilmiş yarışda 3 gümüş və 4 bürünc mükafata sahib çıxmış, medal sıralamasında 67-ci olmuşdular.

Qeyd edək ki, Azərbaycan “Paris-2024” Yay Olimpiya Oyunlarında 15 idman növü üzrə 48 idmançı ilə təmsil olunub.













## İdmanın inkişafına davamlı dövlət qayğısı

Olimpiadalarda, digər nüfuzlu çempionatlarda əldə olunan qələbələrədək idmançılar uzun və çətin yol keçirlər. Hər uğurun arxasında gərgin məşqlər, hazırlıqlar və əlbəttə ki, dövlət qayğısı dayanır. Məhz davamlı dövlət qayğısının nətcəsidir ki, artıq Azərbaycan bütün dünyada idman ölkəsi kimi tanınır. Qürurverici haldır ki, bu gün respublikamız yüksək səviyyəli idman infrastrukturu ilə təminat baxımından dünyanın ən qabaqcıl ölkələri sırasında yer alır. Buna görə də son illərdə bir sıra mötəbər beynəlxalq idman yarışlarına ev sahibliyi hüququ Azərbaycana verilib və ölkəmiz bu etimadı yüksək səviyyədə doğruldub.

Eyni zamanda, dövlət qayğısından, yaradılan şəraitdən bəhrələnən idmançılarımız beynəlxalq çempionatlarda, olimpiadalarda yüksək nəticələr qazanaraq himnimizin səsləndirilməsinə, bayrağımızın ucaldılmasına nail olurlar. Bu cəhətdən 2023-cü il də istisna olmayıb. Ötən il idmançılarımız Avropa və dünya çempionatlarında, kubok yarışlarında, digər rəsmi beynəlxalq turnirlərdə 1472 medal qazanıblar. Bu, idman tariximizdə rekord göstəricidir.

## Gimnastlarımız tarix yazırlar

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri komandası Paris Olimpiadasında tarixi nəticəyə imza atıb. Belə ki, final mərhələsində Zeynəb Hümmətova, Darya Sorokina, Ləman Əlimuradova, Güllü Ağalarzadə və Yelizaveta Luzandan ibarət kollektiv 3 lent və 2 topla hərəkətlərdə 31.600 xal toplayıb. Daha əvvəl 5 halqa proqramında hakimlərdən 34.850 xal alan yığma iki hərəkətin cəmində 66.450 xalla 5-ci pilləni tutub.

Bəli, ölkəmizdə idmanın ayrı-ayrı sahələrinin dövlət qayğısı sayəsində inkişafını gimnastlarımızın uğurlarının timsalında izləmək mümkündür. Azərbaycan Gimnastika Federasiyası (AGF) 1956-cı ildə yaradılıb. Ölkəmiz müstəqillik əldə etdikdən sonra AGF 1993-cü ildə Beynəlxalq Gimnastika Federasiyasına, 1996-cı ildə isə Avropa Gimnastika İttifaqına üzv qəbul olunub. AGF-nin 2002-ci il oktyabrın 7-də keçirilən konfransında ölkənin birinci xanımı Mehriban Əliyeva federasiyanın prezidenti seçilib. Həmin vaxtdan etibarən federasiyada bütün işlər yenidən qurulub. Gimnastikanın bütün növləri üzrə maddi-texniki bazanın gücləndirilməsi, kadr islahatlarının aparılması sayəsində 2002-ci ildən başlayaraq bu sahədə yüksək uğurlar qazanılıb. AGF-in məqsədyönlü və səmərəli fəaliyyətinin nəticəsində ölkə üzrə uşaq, yeniyetmə və gənclərin gimnastika növləri üzrə bölmələrə axını artıb.

*Mübariz FEYİZLİ*

# Davamlı uğurlar gələcək inkişafımızın möhkəm təməlidir



Azərbaycan Respublikasının Milli Məclisinə sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilərdə 102 saylı Şəmkir şəhər seçki dairəsindən Yeni Azərbaycan Partiyasının namizədi, VI çağırış Milli Məclisin sədri Sahibə Qafarova parlament seçkiləri ilə bağlı təşviqat kampaniyasını davam etdirir. Yeni Azərbaycan Partiyasının namizədi kampaniya çərçivəsində növbəti görüşünü Yeni Göyçə kəndində dağ kəndlərinin seçiciləri ilə keçirib.

Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyasının Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev partiyanın seçki platforması haqqında tədbir iştirakçılarına məlumat verib.

Görüşdə çıxış edən deputatlığa namizəd Sahibə Qafarova seçkilərin əhəmiyyəti, ölkəmizin gələcək inkişafında rolu barədə fikirlərini bölüşüb. O, Yeni Azərbaycan Partiyasının növbədənkənar parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatıldığını xatırladaraq qeyd edib ki, 44 günlük Vətən Müharibəsində əldə edilən möhtəşəm Zəfərdən sonra bölgədə yeni reallıqlar yaranıb. Sentyabrın 1-də keçiriləcək Milli Məclisə növbədənkənar seçkilər ölkəmizin bütöv ərazisində ilk parlament seçkiləri olacaq.

Yeni Azərbaycan Partiyasının namizədi ölkəmizin regionlarında sosial-iqtisadi inkişaf istiqamətində görülən tədbirlər haqqında danışaraq vurğulayıb ki, bu sahə dövlətin daim diqqət mərkəzində olan prioritet istiqamətlərdən biridir. Prezident İlham Əliyevin tapşırığı ilə bu gün ölkənin hər bir bölgəsində işlər həyata keçirilir. Şəmkir rayonunda bu istiqamətdə görülən işlər şəhər infrastrukturunun inkişafına və müasirləşməsinə, həmçinin vətəndaşların rifahının daha da yaxşılaşdırılmasına xidmət edir. "Davamlı uğurlar gələcək inkişafımızın möhkəm təməlidir",- deyə vurğulanıb.



Sahibə Qafarova bütün seçiciləri bu seçkilərdə fəal iştirak etməyə və layiqli namizədə səs verməyə çağırıb.

Görüşdə çıxış edən Aşağı Çaykənd sakini Bayram Əliyev, Yuxarı Çaykənd sakini Gülhəyat Əliyeva və digər seçicilər sentyabrın 1-də yüksək fəallıq göstərərək seçkilərdə iştirak edəcəklərini və 102 saylı Şəmkir şəhər seçki dairəsindən Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləyəcəklərini vurğulayıblar.

# Heydər Əliyev yolu Azərbaycanı zirvəyə yüksəldib



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 4 saylı Naxçıvan şəhər seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Eldar İbrahimovun YAP Naxçıvan şəhər təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Naxçıvan şəhər təşkilatının sədri Elman Cəfərli bildirib ki, Yeni Azərbaycan Partiyası bu seçkilərə yeni hədəflər fonunda qələbə əzmi ilə qatılır.

Çıxış edən deputatlığa namizəd Eldar İbrahimov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin uğurlarından danışıb. Bildirib ki, müasir müstəqil Azərbaycan dövlətinin banisi, Ulu Öndər Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti sayəsində ölkəmizdə böyük nailiyyətlər qazanılıb. Bu siyasət Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən davam etdirilərək Azərbaycanın dinamik inkişafı və davamlı yüksəlişi təmin edilib, möhtəşəm Zəfər əldə olunub. Heydər Əliyev yolu Azərbaycanı zirvəyə yüksəldib.

Öz növbəsində çıxış edən seçicilər 1 sentyabr seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.



# Laçınlı seçicilər YAP-ın namizədinə səs verəcəklər




2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 121 saylı Laçın seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Rövşən Muradovun YAP Nizami rayon təşkilatının qərargahında laçınlı seçicilərlə görüşü keçirilib.

Görüşdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Görüşü giriş sözü ilə açan YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatıldığını diqqətə çatdıraraq partiyanın milli maraqlara xidmət edən siyasi fəaliyyəti ilə ölkəmizin inkişafına müstəsna töhfələr verdiyini bildirib.

Çıxış edən deputatlığa namizəd Rövşən Muradov YAP-ın seçki platforması haqqında ətraflı məlumat verərək bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş islahatlar strategiyası bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Öz növbəsində Yeni Azərbaycan Partiyası üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməklə qarşıda duran hədəflərin reallaşmasında mühüm rol oynayır.



Görüşdə çıxış edən təşviqat qrupunun üzvləri Solmaz Məhərrəmova və Gültəkin Hüseynova ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı islahatların Azərbaycanın qüdrətinin artmasını şərtləndirdiyini diqqətə çatdırıblar.

Görüşdə çıxış edən seçicilər Yeni Azərbaycan Partiyasının xalqın etimadını doğrultduğunu bildiriblər. Onlar daha qüdrətli Azərbaycan naminə YAP-ın namizədinə səs verəcəklərini ifadə ediblər.

# YAP-ın namizədlərinə səs vermək rifahı, yüksəlişi və tərəqqini seçməkdir

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 66 saylı Saatlı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Əziz Ələkbərlinin rayonun Əlisoltanlı, Potubəyli, Bəylər və Mollavazlı kəndlərindən olan seçicilərlə görüşü keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Saatlı rayon təşkilatının sədri Elşən Əzizov çıxışında Azərbaycanın



dünyada demokratik, dinamik inkişaf edən ölkə kimi tanındığını vurğulayıb.

Çıxış edən deputatlığa namizəd Əziz Ələkbərli əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. Bildirib ki, ərazi bütövlüyünü tam təmin edən Azərbaycan güclü dövlət olaraq tarixinin ən qürurlu dövrünü yaşayır: "44 günlük müharibə və ardınca bir günlük antiterror tədbirləri nəticəsində Qarabağda separatizm yuvasının tam dağıdılması ilə dünyaya gücümüzü göstərmiş olduq. Bunun nəticəsi olaraq bu gün üçrəngli dövlət bayrağımız ölkəmizin bütün ərazisində qürurla dalğalanır".



Tədbirdə, həmçinin təşviqat qrupunun üzvləri Sevinc Gülüşova, Lütvəli Şıxəliyev və digərləri çıxış ediblər. Qeyd olunub ki, ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün təmin olunması kimi möhtəşəm tarixi hadisədən sonra yeni reallıqlar yaranıb. "İlk dəfə olaraq ölkəmizin bütün ərazilərində prezident seçkiləri keçirilib. İndi Azərbaycan növbəti mühüm ictimai-siyasi mərhələnin astanasındadır", - deyə vurğulanıb.

Öz növbəsində çıxış edən seçicilər də 1 sentyabr seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar. Qeyd olunub ki, YAP-ın namizədlərinə səs vermək rifahı, yüksəlişi və tərəqqini seçməkdir.

# Son 30 ildə möhtəşəm nailiyyətlər qazanmışıq



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 86 saylı Ağcabədi seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Tahir Rzayevin rayonun Hacıbədəlli və Təzəkənd kəndlərində seçicilərlə görüşü keçirilib.

Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov Yeni Azərbaycan Partiyasının bu zamana qədər Azərbaycanın yüksəlişində - ictimai siyasi sabitliyin qorunması, əhalinin rifahının yaxşılaşdırılması və milli həmrəyliyin gücləndirilməsində mühüm rol oynadığını qeyd edib. Milli Məclisə keçirilən seçkilərin önəmini vurğulayan R.Əhmədov 1 sentyabrda hər kəsi seçkidə iştirak etməyə və YAP-ın namizədinə Tahir Rzayevə səs verməyə çağırıb.

Tahir Rzayev seçicilərə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. Ölkəmizin qazandığı nailiyyətlərdən bəhs edən namizəd bildirib ki, hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, Azərbaycanın milli gücünün artmasını təmin edib. "Son 30 ildə möhtəşəm nailiyyətlər qazanmışıq", - deyən T.Rzayev qeyd edib ki, budəfəki parlament seçkiləri ilk dəfə olaraq ölkəmizin bütün ərazilərində keçirilməsi ilə əlamətdardır.

Hacıbədəlli kənd sakini Sabir Cəlilov, Təzəkənd kənd sakinləri Hacı Həziyev, Raquf Ağayev və Rizvan Şıxəliyev 1 sentyabr seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.



# Yeni hədəflərə yalnız qalib Liderimizin siyasəti sayəsində nail ola bilərik

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 46 saylı Sumqayıt beşinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Elnarə Akimovanın seçicilərlə görüşü keçirilib.



Görüşdə əvvəlcə Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP Sumqayıt şəhər təşkilatının məsləhətçisi Elvin Əlizadə YAP-ın seçki platforması haqqında məlumat verib.



Çıxış edən deputatlığa namizəd Elnarə Akimova ölkəmizdə həyata keçirilən siyasətin uğurlu nəticələrindən danışıb. Qeyd edib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyevin davam etdirdiyi siyasət Azərbaycana çox böyük uğurlar qazandırıb. O, xalqın etimadını qazanmış Yeni Azərbaycan Partiyasının bundan sonra da ölkəmizin inkişafına mühüm töhfələr vermək əzmində olduğunu vurğulayıb. "Yeni hədəflərə yalnız qalib Liderimizin siyasəti sayəsində nail ola bilərik", - deyə bildirilib.

Tədbirdə namizədin vəkillərin Aftandil Məmmədov, Elmar Xəlilov, Nasir Rzayev, Nəsrulla Məmmədov və Nigar Vəliyeva çıxış edərək seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıblar.

Seçicilər də YAP-ın namizədinə səs verəcəklərini ifadə ediblər.

Qeyd edək ki, həmin gün deputatlığa namizəd şəhər ərazisində də görüşlər keçirib. Şəhidlər Alməmmədov Təbriz Letman oğlu, Allahverdiyev Kənan Mərdan oğlu və Vəliyev Əli Kamran oğlunun ailələri ziyarət olunub.

# Yeni nailiyyətlərə imza atmaq üçün...



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində avqustun 10-da Yeni Azərbaycan Partiyasının 25 saylı Nizami ikinci seçki dairəsindən deputatlığa namizədi, YAP Sədrinin müavini Əli Əhmədovun gənclərlə görüşü keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxış edən YAP Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatıldığını deyib. O, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyasının bu gün cənab İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atdığını vurğulayıb.

Tədbirdə çıxış edən deputatlığa namizəd Əli Əhmədov partiyanın seçki platforması haqqında ətraflı məlumat verib. Əli Əhmədov Azərbaycanda həyata keçirilən gənclər siyasəti barədə danışıb, bu sahədə əldə olunan uğurlara diqqət çəkib. Bildirib ki, Azərbaycan gəncləri yüksək vətəndaş mövqeyi, ictimai-siyasi proseslərdə fəallıq və vətənpərvərlik nümayiş etdirirlər. Vurğulayıb ki, Heydər Əliyev ideyalarına sədaqət, dövlətə və dövlətçiliyə bağlılıq, Prezident İlham Əliyevin siyasətini birmənalı şəkildə dəstəkləmək gənclərimizin əsas xarakterik keyfiyyətləri sırasındadır.

Diqqətə çatdırılıb ki, dövlətimiz gənclərin inkişafı, yüksək bilik və bacarıqlar əldə etməsi, onlar üçün layiqli həyat şəraitinin yaradılması üçün bütün zəruri addımları atır. Gənclər də öz növbəsində bu siyasəti yüksək qiymətləndirir və onlara göstərilən diqqəti Prezident İlham Əliyevin siyasətinə və dövlətə sədaqətləri ilə təsdiq edirlər.



Əli Əhmədov çıxışında gənc seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb.

Tədbirdə Aybəniz Əliyeva, İlham Vəlizadə, Lalə Həsənova, Namiq Abbaslı və digərləri çıxış ediblər.

Çıxış edən seçicilər də öz növbəsində 1 sentyabr seçkilərində YAP-ın namizədinə səs verəcəklərini əminliklə ifadə ediblər.

Qeyd edək ki, həmin gün deputatlığa namizəd Əli Əhmədov "Qarabeybət" aviasiya poliqonunda Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması nəticəsində şəhid olmuş kapitan Teymur Ənvər oğlu Qaraisayev və Vətən müharibəsi şəhidi leytenant Namiq Rəhbər oğlu Cavadovun ailələrini ziyarət edib.

# Bu günün uğurlarına, sabahın hədəflərinə səs verək!



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 103 saylı Şəmkir kənd seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Nurlan Həsənovun YAP Şəmkir rayon təşkilatının qərargahında ilk dəfə səs verəcək gənclərlə və Dəllər-Cırdaxan kəndində seçicilərlə görüşləri keçirilib.

Görüşdə çıxış edən YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev Yeni Azərbaycan Partiyasının yarandığı gündən yüksək nüfuz qazanmasından, Ümummilli Lider Heydər Əliyevin "YAP dünənin, bu günün və gələcəyin partiyasıdır" çağırışında ifadə edilən inamı, etimadı doğrultmasından, hazırda yeni dövrün çağırışlarına uyğun olaraq qarşıda dayanan vəzifələri Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla yerinə yetirməsindən bəhs edib. O bildirib ki, Yeni Azərbaycan Partiyası 1 sentyabr parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatılıb.



Deputatlığa namizəd Nurlan Həsənov öncə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O bildirib ki, partiyanın "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı altında təqdim etdiyi seçki platformasında Azərbaycanın 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından bugünədək keçdiyi inkişaf yolu, qazandığı uğurlar və onların əsasında qarşıdakı dövr üçün müəyyənləşdirilən hədəflər öz əksini tapıb.

Deputatlığa namizəd ilk dəfə səs verəcək seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə səsləyib. "Bu günün uğurlarına, sabahın hədəflərinə səs verək!", - deyə vurğulanıb.

Tədbirdə, həmçinin təşviqat qrupunun üzvləri Zamir Güvəndiyev, Famil Həmidov, Ayaz Orucov, Roza Orucova, Nizami Əhmədov və başqaları çıxış edərək bildiriblər ki, seçkilərin demokratikliyini, şəffaflığını, beynəlxalq standartlara uyğun keçirilməsini təmin etmək üçün dövlətimiz bütün zəruri addımları atır. Onlar yeni dövrün hədəflərinin həyata keçirilməsi ilə uğurlarımızın davamlılığını təmin etmək üçün seçiciləri fəal olmağa, YAP-ın namizədinə səs verməyə çağırıblar.

# "Seçimimiz dəyişməzdir!"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 53 saylı Yevlax-Mingəçevir seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Əli Hüseynlinin Yevlax rayonunun Salahlı və Balçılı kəndlərində seçicilərlə görüşü keçirilib.

YAP Yevlax rayon təşkilatının sədri Rafiq Əliyev Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan, əldə etdiyi uğurlardan danışıb. Vurğulanıb ki, xalqımız bu dəfə də Yeni Azərbaycan Partiyasının namizədlərinə böyük etimad göstərməklə öz parlaq gələcəyinə səs verəcək.

Sonra çıxış edən deputatlığa namizəd Əli Hüseynli seçicilərə Yeni Azərbaycan Partiyasının seçki platforması haqqında ətraflı məlumat verib.

Ə.Hüseynli vurğulayıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu möhtəşəm qələbələr qazandı, ölkənin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi. Cənab İlham Əliyev ölkəmizin davamlı inkişafını təmin etməklə və xalqımıza möhtəşəm nailiyyətlər qazandırmaqla bütün dünyada sübut etdi ki, Azərbaycan istənilən hədəfi inamla reallaşdırmaq və yeni qələbələr əldə etmək əzmindədir.



Əli Hüseynli seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə, birlikdə növbəti zəfərlərə doğru inamla addımlamağa çağırıb.

Seçicilər də öz növbəsində 1 sentyabr - parlament seçkilərində fəal iştirak edəcəklərini və Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklərini bildiriblər. "Seçimimiz dəyişməz, YAP-a inamımız sonsuzdur", - deyə vurğulanıb.

# YAP şərəfli və zəngin inkişaf yolu keçib



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 99 saylı Bərdə seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Fatma Yıldırımın YAP Bərdə rayon təşkilatında şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları, Saatlı kəndinin seçiciləri ilə görüşü keçirilib.

Görüşdə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



YAP Bərdə rayon təşkilatının sədri Faqət Şadlinskaya parlament seçkilərinin önəmindən bəhs edib.

Çıxış edən deputatlığa namizəd Fatma Yıldırım əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O, Yeni Azərbaycan Partiyasının bütün seçkilərdə qələbə qazanaraq şərəfli və zəngin inkişaf yolu keçdiyini, bundan sonra da öz fəaliyyətində xalqın mənafeyini əsas götürəcəyini söyləyib.

Deputatlığa namizəd seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb.

Tədbirdə təbliğat qrupunun üzvləri - şəhid anaları İsbət Hətəmova, Mehparə Qəribova, Radə Qurbanova çıxış ediblər. Onlar seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

Seçicilərdən Birinci Qarabağ müharibəsi qaziləri Elbrus Rüstəmov, Tahir Sadıqov, Müşgünaz Quliyeva, Seyid Səbuhi Yusifov və digərləri çıxış edərək YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

# "Yeni mərhələdə qarşımızda mühüm hədəflər durur"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Ceyhun Valeh oğlu Məmmədovun Sumqayıt şəhərində seçicilərlə görüşü keçirilib.



Görüşü giriş sözü ilə açan YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev diqqətə çatdırıb ki, Ulu Öndərin dünənin, bu günün və gələcəyin partiyası kimi dəyərləndirdiyi YAP tarixin bütün sınaqlarından şərəflə çıxıb: "YAP bu gün də Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atmaqda davam edir. Partiyanın çoxşaxəli fəaliyyəti ölkədaxili ictimai-siyasi münasibətlərdə fəal iştirakla məhdudlaşmır, eyni zamanda, beynəlxalq məzmun, xarakter və əhəmiyyət daşıyır".



Çıxış edən deputatlığa namizəd Ceyhun Məmmədov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O vurğulayıb ki, Azərbaycan yeni dövrə qədəm qoyub: "Dövlətimiz genişmiqyaslı islahatlar aparır. Bu islahatların nəticələri gündəlik həyatda, ölkənin iqtisadi göstəricilərində, sosial sahədə əldə edilmiş nailiyyətlərdə əksini tapır. Azərbaycanın uğurlu siyasəti bölgədə yeni əməkdaşlıq və təhlükəsizlik mühiti yaradıb".

C.Məmmədov qeyd edib ki, Vətən müharibəsinin nəticələri də region üçün yeni reallıqlar formalaşdırıb: "Azərbaycanda həm siyasi, həm iqtisadi sahədə dayanıqlı inkişaf təmin edilib, respublikamız beynəlxalq aləmdə çox böyük nüfuza və hörmətə malik olan ölkəyə çevrilib. Yeni mərhələdə qarşımızda mühüm hədəflər durur".

Tədbirdə çıxış edənlər YAP-ın növbəti qələbə qazanmaq əzmində olduğunu vurğulayaraq seçiciləri Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıblar.

# Zəfər yürüşünün davamına qətiyyətli dəstək...



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 114 saylı Şəki şəhər seçki dairəsi üzrə deputatlığa namizədliyi irəli sürülmüş Vüqar İskəndərovun Şəki Dövlət Dram Teatrında seçicilərlə görüşü keçirilib.

Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşü giriş sözü ilə açan YAP Şəki rayon təşkilatının sədri Daşqın Mikayılov Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə "Yeni dövrə yeni Azərbaycanla!" şüarı ilə qatıldığını diqqətə çatdırıb və partiyanın bu dəfə də möhtəşəm qələbə qazanacağına inamını ifadə edib.

Çıxış edən deputatlığa namizəd Vüqar İskəndərov YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası ölkəmizin inkişafı istiqamətində önəmli işlər görüb və mühüm nailiyyətlərə imza atıb: "Ölkəmizin aparıcı siyasi qüvvəsi olan partiyamız bütün imkanlarını səfərbər edərək yeni dövrün prioritetlərindən irəli gələn hədəflərin reallaşdırılması yönündə məqsədyönlü fəaliyyət göstərir".



Tədbirdə, həmçinin təşviqat qrupunun üzvləri Məcid Əliyev, Şahin Şirinzadə və digərləri çıxış edərək seçiciləri parlament seçkilərində YAP-ın namizədinə səs verməyə çağırıblar. "Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Zəfər yürüşünün davamına qətiyyətli dəstək vermək üçün Yeni Azərbaycan Partiyasına növbəti dəfə etimad göstərməliyik", - deyə vurğulanıb.

# "İnkişafımız davam edəcək"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Kamran Bayramovun Daşkəsən rayonunun Quşçu, Çovdar və Bayan kəndlərində seçicilərlə görüşü keçirilib.

YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçiyev bildirib ki, YAP tarixin bütün sınaqlarından şərəflə çıxaraq cəmiyyətin avanqard qüvvəsinə çevrilib: "Prezident İlham Əliyevin qeyd etdiyi kimi, YAP bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq. Yeni Azərbaycan Partiyasının 700 min nəfərdən çox üzvü var. Bu fakt bir daha göstərir ki, xalqın partiyaya inamı, güvəni sonsuzdur".

Sonra çıxış edən deputatlığa namizəd Kamran Bayramov bildirib ki, Heydər Əliyev yolunun layiqli davamçısı Prezident İlham Əliyevin müdrik siyasəti sayəsində hazırda Azərbaycan heç bir zaman olmadığı qədər güclü və qüdrətli ölkəyə çevrilib: "Azərbaycanın tutduğu yol ölkənin milli maraqlarını əks etdirir. Şübhə yoxdur ki, görülən işlər nəticəsində bundan sonra da inkişafımız davam edəcək!".

Tədbirlərdə, həmçinin partiya fəalları Asif Məmmədov, Narıngül Qarayeva, Məhəmməd İbrahimov, Rasim Kərimov, Nurəddin Ramazanov, Məmməd Məmmədov və Tural Abdullayev çıxış edərək seçiciləri seçkilərdə fəal iştirak etməyə və layiqli namizədə səs verməyə çağırıblar.



Seçicilər də öz növbəsində seçkilərdə fəal iştirak edərək YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

# "YAP-ın fəaliyyəti milli maraqlarımızın qorunmasına hədəflənib"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası tərəfindən 117 saylı Oğuz-Qəbələ-Şəki seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Eyvaz Qurbanovun Oğuz rayonunun Qumlaq, Şirvanlı və Tayıflı kəndlərində seçicilərlə görüşü keçirilib.



Görüşü giriş sözü ilə açan YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov daim inamlı qələbələr qazanan Yeni Azərbaycan Partiyasının budəfəki seçkilərə də yüksək səviyyədə hazırlaşdığını və növbəti dəfə xalqın etimadı əsasında tarixi uğur əldə edəcəyinə inamını ifadə edib.



Çıxış edən deputatlığa namizəd Eyvaz Qurbanov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. Vurğulayıb ki, Milli Məclisə keçirilən növbədənkənar seçkilər 7 fevral 2024-cü ildə keçirilmiş Zəfər seçkilərinin məntiqi davamıdır. "YAP daim dövlətçiliyə xidmət edir və partiyamızın fəaliyyəti Azərbaycanın milli maraqlarını qətiyyətlə qorunmasına hədəflənib", - deyə vurğulanıb.

Tədbirdə, həmçinin təşviqat qrupunun üzvləri Günel Abdullayeva, Ceyhun Kərimov, İlkin Lətifov, şəhid atası Həsən Abdullayev, şəhid bacısı Əfsanə Qarayeva, müharibə veteranı Araz Məmmədov, kənd sakini Radilə Xəlilova və digərləri çıxış ediblər.

Qeyd edək ki, deputatlığa namizəd Eyvaz Qurbanov rayonun Qumlaq kəndində şəhid Araz Abdullayevin ailəsini ziyarət edib.

# Sabirabad gəncləri parlament seçkilərində fəal iştirak edəcəklər




2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 68 saylı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Kamal Cəfərovun YAP Sabirabad rayon təşkilatının qərargahında gənclərlə görüşü keçirilib.

YAP Sabirabad rayon təşkilatının sədri Varis Rüstəmov bildirib ki, dövlətimizin inkişafında gənclərin fəal olması olduqca vacibdir. Varis Rüstəmov ölkə rəhbərliyinin hər zaman gənc nəslin inkişafına diqqət və qayğısını xüsusilə vurğulayıb.

Çıxış edən deputatlığa namizəd Kamal Cəfərov gənclərin cəmiyyətin ictimai-siyasi həyatında fəal olmasının mühüm əhəmiyyət kəsb etdiyini bildirib. O əlavə edib ki, gənclərimiz dövlətçiliyə sadiqdirlər, vətənpərvərlik ruhunda tərbiyə alırlar, müasir, Vətənə, millətə bağlı və dövlətçiliyə sadiqdirlər.

Kamal Cəfərov gəncləri qarşıdan gələn parlament seçkilərində fəal iştirak etməyə dəvət edib.

Tədbirdə çıxış edən gənclər seçkilərdə fəal iştirak edəcəklərini deyiblər.



# "Hər bir azərbaycanlı öz qüdrətli dövləti ilə qürur duyur!"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 110 saylı Balakən seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Nəsib Məhəməliyevin partiyanın Balakən rayon təşkilatının qərargahında rayon ağsaqqalları və ziyalıları ilə görüşü keçirilib.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Balakən rayon təşkilatının sədri Azad Baləyev bildirib ki, Azərbaycanda sentyabrın 1-nə təyin edilmiş parlament seçkilərinin azad, ədalətli, şəffaf və demokratik keçirilməsi üçün bütün şərait yaradılıb: "Mövcud reallıqlar fonunda bu dəfə də partiyamızın möhtəşəm qələbə qazanacağına əminik".



Sonra çıxış edən deputatlığa namizəd Nəsib Məhəməliyev deyib ki, bugünkü qüdrətli, güclü, qalib Azərbaycan Ulu Öndər Heydər Əliyevin şah əsəridir: "Bu gün Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən həyata keçirilən siyasətin uğurları hər birimizin gözü önündədir. Hazırda harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz qüdrətli dövləti ilə qürur duyur!".

Deputatlığa namizəd budəfəki parlament seçkilərinin ilk dəfə olaraq ölkəmizin bütün ərazilərində keçirilməsinin önəmini diqqətə çadıraraq hər bir vətəndaşı seçkilərdə aktiv iştirak etməyə çağırıb.

Tədbirdə çıxış edən təşviqat qrupunun üzvləri Xəlifə Mirəliyev, Rəşid Musayev, Şöyüb Mikayılov və digərləri seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə dəvət ediblər.

Seçicilər 1 sentyabr seçkilərində YAP-ın namizədini dəstəkləyəcəklərini bildiriblər.

# Zəfər yolunda inamla irəliləyirik

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 106 saylı Tovuz seçki dairəsi üzrə deputatlığa namizədliyi irəli sürülmüş Nizami Səfərovun partiyanın Tovuz rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirələri ehtiramla yad edilib.






YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov çıxış edərək Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının əldə etdiyi uğurlardan danışıb.

Görüşdə çıxış edən deputatlığa namizəd Nizami Səfərov əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verib. O, Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı olan dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə aparılan və bütün sahələri əhatə edən çoxşaxəli islahatlar müasir çağırışlara və reallıqlara cavab verir. Azərbaycan dünyada müstəqil siyasət yürüdən, özünəməxsus inkişaf yolu olan islahatçı ölkə imici qazanıb: "Qürurverici haldır ki, bu gün Zəfər yolunda inamla irəliləyirik".

Sonra təşviqat qrupunun üzvləri Məzahir Bayramov, Mücaməddin Axundov, Mayıl Hümmətov, Nazim Quliyev, Elman Bayramov Yeni Azərbaycan Partiyasının xalqımızın qarşısında duran vəzifələrin yerinə yetirilməsinə özünün layiqli töhfəsini verdiyini deyib.

Seçicilər də Yeni Azərbaycan Partiyasının xalqın partiyası olduğunu bildirərək 1 sentyabr - parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini əminliklə ifadə ediblər.

# YAP xalqın iradəsini əks etdirən aparıcı siyasi qüvvədir



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 44 saylı Sumqayıt üçüncü seçki dairəsi üzrə deputatlığa namizədliyi irəli sürülmüş Mehriban Vəliyevanın Sumqayıtda seçicilərlə görüşü keçirilib.

Görüşdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşdə çıxış edən YAP Sumqayıt şəhər təşkilatının sədr müavini Cavid Məmiyev partiyanın hər zaman bütün seçkilərə yüksək səviyyədə hazırlaşdığını vurğulayaraq Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə "Yeni dövrə yeni Azərbaycanla!" şüarı ilə qatıldığını bildirib. O, YAP-ın ümumxalq partiyası kimi öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdiyini söyləyib.

Deputatlığa namizəd Mehriban Vəliyeva əvvəlcə YAP-ın seçki platforması haqqında ətraflı məlumat verərək qeyd edib ki, platformada mühüm məqamlar - uğurlarla yanaşı, ölkəmizin perspektiv inkişafı ilə əlaqədar yeni hədəflər öz əksini tapıb. Deputatlığa namizəd ölkəmizin daha da güclənməsi naminə seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və layiqli namizədlərə səs verməyə çağırıb.

Tədbirdə, şəhid atası Sovet Şükürov, Vətən Müharibəsi qazisi Pərvin Abdullayev və digərləri çıxış ediblər. Onlar ölkəmizin hərtərəfli inkişafında YAP-ın müstəsna rolunu qeyd edərək parlament seçkilərinin önəmini vurğulayıblar. "YAP xalqın iradəsini əks etdirən aparıcı siyasi qüvvədir", - deyə vurğulanıb.



Çıxış edən seçicilər də 1 sentyabr seçkilərində YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

Qeyd edək ki, Mehriban Vəliyeva antiterror tədbirləri zamanı şəhid olan polis əməkdaşı Ramil Şirinovun ailəsini də ziyarət edib.

# Xalqın Yeni Azərbaycan Partiyasına sarsılmaz inamı partiyanın növbəti qələbəsini şərtləndirir

## 53 saylı Yevlax-Mingəçevir seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Əli Hüseynli yap.org.az saytına müsahibə verib



**- Əli müəllim, sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcəkdir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm ümumxalq Zəfərindən sonra ilk dəfə bütün ölkə ərazisində keçirilən parlament seçkilərinin önəmi barədə nə deyə bilərsiniz?**

- Demokratik inkişafı səciyyələndirən əsas amillər ölkədə sabitliyin mövcudluğu və qanunun aliliyinin təmin edilməsidir. Azərbaycan sabitlik məkanı kimi beynəlxalq səviyyədə nüfuz qazanıb. Bu uğura əsas verən amil, təbii ki, güclü lider və düşünülmüş siyasətdir. Bu reallığı daha dəqiq ifadə etmək üçün müstəqillik tariximizin ayrı-ayrı mərhələlərini müqayisəli təhlil etmək kifayətdir.

Dövlət müstəqilliyimizin bərpasının ilk illərində iqtidarın yarıtmaz siyasəti, idarəçilik qabiliyyətinin olmaması, şəxsi ambisiyalarının quluna çevrilərək dövlət maraqlarını arxa planda saxlaması Azərbaycanı uçurumun kənarına gətirib çıxarmışdı. Ölkəmizdə ictimai-siyasi gərginlik kulminasiya nöqtəsində idi. Ölkədə separatizmin baş qaldırması, Azərbaycanın hər an müstəqilliyini itirmək təhlükəsini yaşaması həmin dövrü xarakterizə edən faciələr idi. Təbii ki, istər zor gücünə hakimiyyəti zəbt etmiş AXC-Müsavat iqtidarı, istərsə də xalqımız çox yaxşı bilirdi ki, hadisələr belə davam edə bilməz. Ona görə də xalq xilaskarını - Ulu Öndər Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Ümummilli Liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın həyatında yeni bir dövrün başlanğıcı oldu. Məhz Heydər Əliyevin qətiyyəti, cəsarəti, təcrübəsi, dünyagörüşü, düşünülmüş və gələcəyə hesablanmış siyasəti nəticəsində Azərbaycan ağır vəziyyətdən çıxdı, ölkədə sabitlik yarandı və inkişaf dövrü başlandı.

Demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunu tutan Azərbaycanın qeyd olunan istiqamətlərdə atdığı addımların uğurlu nəticələri bugünkü reallıqlarımızda özünün aydın ifadəsini tapır. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə yaradılmış komissiya tərəfindən hazırlanan və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilən milli Konstitusiyamız Azərbaycanın demokratik, hüquqi, sivil dəyərlərə malik ölkə olaraq milli kimliyini beynəlxalq aləmə təqdim etdi. Sənəddə əksini tapan maddələrin üçdə iki hissəsi insan hüquq və azadlıqlarının qorunmasına aid idi.

Yeni Azərbaycan Partiyasının "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə təqdim etdiyi seçki platformasında Azərbaycanın digər sahələr kimi, demokratik inkişaf istiqamətində də qazandığı uğurlar və onların əsasında gələcək üçün müəyyənləşdirilən hədəflər öz əksini tapıb. Seçki platformasında qeyd edildiyi kimi, ölkəmizdə genişmiqyaslı islahatlar nəticəsində vətəndaşların hüquq və azadlıqları təmin olunub, ictimai münasibətlər demokratik normalar əsasında inkişaf edib, siyasi qüvvələrin sivil qaydalar əsasında sağlam rəqabəti üçün əlverişli zəmin yaradılıb.

Demokratik cəmiyyətin atributlardan biri də ölkədə seçkilərin şəffaf, beynəlxalq standartlara uyğun keçirilməsinin təmin edilməsidir. Ümummilli Lider Heydər Əliyevin yaratdığı möhkəm təməl Azərbaycanın son 20 ildən artıq dövrdə davamlı uğurlarını şərtləndirir. Azərbaycan sabitlik məkanı kimi Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı imicə yeni müsbət əlavələr edir. Dövrün çağırışlarına uyğun olaraq seçki qanunvericiliyində təkmilləşmələr hər bir seçki prosesində özünü təsdiqləyir. Cənab İlham Əliyevin "Demokratikləşmə sadəcə bir şüar, niyyət deyil, Azərbaycanın hərtərəfli inkişafının əsasıdır" çağırışı bütün dövrlər üçün aktuallığını qorumaqla bərabər, atılan addımların bələdçisinə çevrilib. 2003-cü ilin mayında qəbul edilən Seçki Məcəlləsinə mütəmadi olaraq əlavə və dəyişikliklərin edilməsi, yeni təcrübələrin tətbiqi və s. kimi mühüm addımlar Azərbaycan hakimiyyətinin seçkilərin demokratik, azad, şəffaf və beynəlxalq standartlara uyğun keçirilməsində maraqlı olduğunu təsdiqləyir.

1 sentyabr - parlament seçkilərinin özəlliyi suverenliyimizin tam bərpası fonunda bütün ölkə ərasini əhatə etməsidir. Hər bir seçki prosesinə qələbə əzmi ilə qatılan YAP bu seçkilərdə də yüksək fəallığı, hazırlığı ilə diqqətdədir. Əminik ki, 1 sentyabr - növbədənkənar parlament seçkiləri də Azərbaycanın demokratik inkişaf tarixinə növbəti uğur səhifəsini yazacaq, yeni formalaşan parlament qalib, bütövləşən Azərbaycanın yeni dövrünün hədəflərinin reallaşmasına töhfə verəcək. Xalqın yüksək inam və etimadını qazanan Yeni Azərbaycan Partiyasının bu seçkilərdə də qələbə qazanacağı şübhəsizdir.

**- Yeni Azərbaycan Partiyasına xalqın inamını və etimadını şərtləndirən amillər hansılardır?**

- Ümummilli Lider Heydər Əliyev xalqın böyük əksəriyyətinin istəyini özündə ehtiva edən 91 nəfər ziyalının "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciətinə "Yeni müstəqil Azərbaycan uğrunda" cavabında bu mühüm məqamı xüsusi qeyd etmişdi ki, Azərbaycanın dövlət müstəqilliyinin qorunması, milli-demokratik dövlətin, hüquqi cəmiyyətin yaradılması hərtərəfli, genişplanlı iş aparılmasını və respublikanın bütün ictimai-siyasi, sosial-iqtisadi potensialından maksimum istifadə olunmasını tələb edir. Ulu Öndərin cavabında bu çağırış da öz əksini tapmışdı ki, Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdə doğur. Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər.

Bugünkü reallıqlarımız Ulu Öndər Heydər Əliyevin partiyaya inamının təsdiqidir. 32 ilə yaxın dövr YAP-ın Azərbaycanın uğurlarında müstəsna roluna işıq salır. Yarandığı gündən yüksək nüfuz qazanması və xalqın partiyası kimi tanınması YAP-ın ən böyük uğurlarından biridir.

Partiya hər bir dövrün çağırışlarına uyğun olaraq yeniləşmədə, təkmilləşmədə maraqlıdır və bunu atdığı addımları ilə nümayiş etdirir. Azərbaycanın hərtərəfli inkişafı, xalqın həyata keçirilən siyasətə dəstəyi, Yeni Azərbaycan Partiyasına inamı ölkədə keçirilən bütün seçkilərdə partiyanın qələbəsini şərtləndirir. Sözlə əməl birliyi, tutduğu yola sadiqlik bu inama böyük əsas verir. Dövlətin, dövlətçiliyin inkişafı YAP-ın əsas prinsiplərindəndir. YAP ənənələri olan partiyadır, zəngin seçki təcrübəsinə malikdir. Bu təcrübə seçkidən-seçkiyə daha da təkmilləşir. Yeni Azərbaycan Partiyası, eyni zamanda, demokratik ənənələrə mühüm siyasi dəyər kimi yanaşır və onları möhkəmləndirməyi əsas məqsədlərindən biri hesab edir.

Qeyd etdiyim kimi, partiyanın Proqramında, "Yeni dövrə yeni Azərbaycanla" seçki platformasında təsbit olunan prinsiplərdən biri demokratik ənənələrin inkişafıdır. YAP siyasi plüralizmi təşviq edir, siyasi sistemin inkişafına, Azərbaycanın müasir, demokratik və hüquqi dövlət kimi tərəqqisinə layiqli töhfələr verir. Partiyanın seçki platformasında yer alan hədəflər sırasında demokratik inkişafa xüsusi diqqət yönəldilib. Qeyd edilir ki, YAP bundan sonra da öz imkanlarından və demokratik mühitin üstünlüklərindən maksimum istifadə etməklə məqsədyönlü fəaliyyətini inamla davam etdirəcək, qarşıda duran milli məqsədləri reallaşdıraraq Azərbaycanın inkişafına layiqli töhfələr verəcək. YAP-ın demokratik inkişaf istiqamətində əsas hədəfləri qanunun aliliyinin təmin edilməsi, insan və vətəndaş hüquqlarının, söz, fikir və ifadə azadlığının qorunması, demokratik təsisatların güclənməsinə və vətəndaş cəmiyyətinin inkişafına xidmət edən tədbirlərin davam etdirilməsi, dövlət orqan və qurumlarında, özəl sektorda şəffaflığın daha da artırılması üçün ictimai institutlara dəstəyin gücləndirilməsi, demokratik dəyərlərə zidd olan neqativ hallara qarşı mübarizənin sistemli şəkildə davam etdirilməsi, demokratik inkişaf naminə digər siyasi partiyalarla fəal dialoq və konstruktiv əməkdaşlığın davam və inkişaf etdirilməsidir.

Azərbaycanda yeni siyasi konfiqurasiya formalaşır. Bundan sonra da lazımi addımlar atılacaq və Azərbaycanda çoxpartiyalı sistem daha da möhkəm əsaslar üzərində qurulacaq.

**- Əli müəllim, seçicilərlə görüşləriniz hansı qənaətləri ifadə etməyinizə əsas verir?**

- Azərbaycan vətəndaşları dövlətin həyata keçirdiyi siyasətdən, qazandığımız möhtəşəm uğurlardan və zəfərlərdən, Yeni Azərbaycan Partiyasının ölkəmizin inkişafına töhfələrindən məmnunluqlarını bildirirlər. Son 20 ildən artıq dövrdə Azərbaycanın əsrə bərabər yol keçdiyi vurğulanır. Azərbaycanı zirvələrə yüksəldən siyasətə xalqımızın dəstəyi şəksizdir.

Partiyanın seçki platformasında da qeyd edildiyi kimi, hazırda qarşımızda dayanan başlıca məqsəd növbəti milli hədəflərimizin gerçəkləşdirilməsidir. Siyasi sabitliyin və milli birliyin qorunması, davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi, əhalinin rifahının daha da yaxşılaşdırılması, tarixi Zəfərimizin beynəlxalq müstəvidə tam və qəti şəkildə təsbit olunması, dövlətimizin hərbi qüdrətinin daha da artırılması, Böyük Qayıdış Proqramının ardıcıl olaraq və zamanında həyata keçirilməsi, regionda dayanıqlı sülhə, etibarlı təhlükəsizliyə, çoxşaxəli əməkdaşlığa nail olunması və digər hədəflər xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün 1 sentyabr - parlament seçkilərində fəal iştirak edək, cəmiyyətin avanqard qüvvəsi olan Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verək!

# Xalq-iqtidar birliyi sarsılmaz təməllərə söykənir




2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 38 saylı Gəncə birinci seçki dairəsi üzrə deputatlığa namizədliyi irəli sürülmüş Naqif Həmzəyevin Gəncə şəhərində seçiciləri ilə görüşü keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirələri ehtiramla yad edilib.



YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov bildirib ki, ölkəmiz demokratik inkişaf yolunda inamla irəliləyir: "Demokratik dəyərlərə sədaqət siyasi sistemin inkişafını təmin edən faktorlardan biridir. Plüralizm, insanların azadlığı və bərabərliyi, ictimai rəyin nəzərə alınması, qanunların aliliyinə riayət olunması YAP-ın fəaliyyətinin siyasi əsaslarını təşkil edir".

B.Aslanov ölkəmizdə xalq-iqtidar birliyinin sarsılmaz təməllərə söykəndiyini diqqətə çatdırıb.

Deputatlığa namizəd Naqif Həmzəyev çıxışında partiyanın seçki platforması barədə məlumat verib. O, Yeni Azərbaycan Partiyasının ötən illər ərzində keçirilən prezident, parlament və bələdiyyə seçkilərində daim qalib gələn partiya kimi tarixə düşdüyünü deyib. N.Həmzəyev Ulu Öndər Heydər Əliyevin "YAP dünənin, bu günün, sabahın partiyasıdır" fikrinin partiyanın uğurlarını və hədəflərini özündə əks etdirdiyini, Heydər Əliyev yolunun ölkəmizə bundan sonra da mühüm nailiyyətlər qazandıracağını söyləyib.

Yeni Azərbaycan Partiyasının hər zaman xalqın etimadını doğrultduğunu deyən seçicilər bu dəfə də YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

# Yeni Azərbaycan Zəfər zirvəsindədir!

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 51 saylı Şirvan seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Heydər Əsədovun YAP Şirvan şəhər təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirələri ehtiramla yad edilib.

Görüşü giriş sözü ilə açan YAP Şirvan şəhər təşkilatının sədri Zahir Qəhrəmanov bildirib ki, daim dövlətçiliyimizə xidmət edən Yeni Azərbaycan Partiyası əldə olunan uğurlarla kifayətlənmir, yeni hədəflərə doğru irəliləyir. Təsadüfi deyil ki, YAP bu seçkilərə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatılıb.



Çıxış edən deputatlığa namizəd Heydər Əsədov əvvəlcə YAP-ın seçki platforması haqqında məlumat verib. O, Azərbaycanın hüquqi, dünyəvi və demokratik dövlət inamla inkişaf etdiyini, ötən müddət ərzində Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə çox mühüm nailiyyətlər əldə olunduğunu və qalib, qüdrətli, yeni Azərbaycanın Zəfər zirvəsinə yüksəldiyini vurğulayıb.

"Hər zaman demokratik siyasi mühitin və plüralizmin tərəfdarı olan, siyasi sistemin inkişafı istiqamətində ardıcıl fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası bundan sonra da öz imkanlarından və demokratik mühitin üstünlüklərindən maksimum istifadə etməklə məqsədyönlü fəaliyyətini inamla davam etdirəcək, qarşıda duran milli məqsədləri reallaşdıraraq Azərbaycanın inkişafına layiqli töhfələr verəcəkdir", - deyən Heydər Əsədov seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və ən layiqli namizədə səs verməyə çağırıb. O, deputat seçiləcəyi təqdirdə ona göstərilən inam və etimadı layiqincə doğrultmağa çalışacağına söz verib.

Tədbirdə, həmçinin təşviqat qrupunun üzvləri çıxış edərək parlament seçkilərinin əhəmiyyətindən bəhs ediblər.

Öz növbəsində çıxış edən seçicilər YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar.

# Yeni qələbələr naminə...

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat-təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 34 saylı Xətai ikinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Mixail Zabelinin seçicilərlə görüşü keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Xətai rayon təşkilatının sədr müavini



Vüqar Hüseynov bildirib ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasətinin son 20 ildən artıq dövrdə Prezident İlham Əliyevin uğurla davam etdirməsi Azərbaycanın müstəqillik tarixini möhtəşəm uğurlarla, Zəfərlərlə zənginləşdirib: "Qürurverici nailiyyətlər xalqımızı sevindirir, ölkəmizin yeni dövrün hədəflərinə doğru inamla irəliləməsini şərtləndirir. Azərbaycan qalibiyyəti, ərazi bütövlüyünü və suverenliyini tam təmin etməsi ilə dünyaya səs salıb. YAP-ın 1 sentyabr növbədənkənar parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatılması gələcəyə böyük çağırışdır".




Çıxış edən deputatlığa namizəd Mixail Zabelin Ümummilli Lider Heydər Əliyevin hələ hakimiyyətinin birinci dövründə Azərbaycanın bu günü və gələcəyi üçün gördüyü işlərdən, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyət qayıdışından sonra ölkəmizi müstəqilliyini itirmək təhlükəsindən xilas etməsindən bəhs edib. Azərbaycanın uğurlarında böyük payı olan YAP-ın keçdiyi şərəfli yoldan danışan M.Zabelin seçiciləri səsvermə prosesində fəal olmağa, ölkəmizdə gedən bütün proseslərin mərkəzində dayanan, xalqın partiyası olan YAP-ın namizədlərinə səs verməyə çağırıb.

Tədbirdə çıxış edən Xətai Rayon Ağsaqqallar Şurasının sədri Mürvət Əsgərov, şəhid atası Meyvəddin Ramaldanov və digərləri əldə olunan uğurların qarşıdakı dövr üçün yeni prioritetlər müəyyənləşdirdiyini deyib, yeni qələbələr naminə seçiçiləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

Seçicilər qeyd ediblər ki, sentbarın 1-də seçki məntəqələrinə gedərək ölkənin tərəqqisi üçün Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləyəcəklər.

# Qarşıdakı 3 ilə dair beynəlxalq proqnoz



## Niderlandın "ING Group" şirkəti Azərbaycanda dayanıqlı inkişafa dair nikbin qiymətləndirməni açıqlayıb

Niderlandın "ING Group" analitik tədqiqat şirkəti 2024-cü ildə qlobal iqtisadiyyatla bağlı yenilənmiş proqnozlarını açıqlayıb. Şirkətin Azərbaycan iqtisadiyyatına dair gözləntiləri olduqca ümidverici və Avrozona ölkələrinin əksəriyyətinin artım templərindən daha yüksəkdir. Belə ki, "ING Group" Azərbaycanda cari il üzrə iqtisadi artım proqnozunu ilin əvvəli ilə müqayisədə 1 faiz-bənd artıraraq 3,8 faiz nisbətində müəyyənləşdirib ki, bu da orta dünya göstəricisindən 0,5-1 faiz-bənd yüksəkdir. Şirkət 2025-ci ildə ölkəmizdə artım dinamikasının 2,5 faiz, 2026-cı ildə isə 2,8 faiz səviyyəsində proqnozlaşdırır.

"ING Group"un Azərbaycan iqtisadiyyatı ilə bağlı proqnoz göstəriciləri Azərbaycan hökumətinin cari və yaxın 3 illik inkişaf ssenarilərinə uyğundur. Hökumətin proqnozlarına əsasən, 2024-cü ildə ÜDM real ifadədə 2,4 faiz artaraq 118,4 milyard 2,4 faiz, 2025-ci ildə 2,9 faiz, 2026-cı ildə 2,7 faiz, 2027-ci ildə isə 3,6 faiz təşkil edəcək. Qeyri-neft ÜDM-i isə 2024-cü ildə 4,6 faiz, 2025-ci ildə 2,7 faiz, 2026-cı ildə 4,9 faiz, 2027-ci ildə isə 5 faizə bərabər olacaq.

Bəzi beynəlxalq maliyyə institutları ötən illərə qədər Azərbaycanda iqtisadi artımın neft-qaz sektorunun yaratdığı əlavə dəyərə əsaslandığını nəzərə alaraq proqnoz verirdisə, artıq bir müddətdir ki, ələlxsus da, 2023-cü ildən etibarən iqtisadiyyatda makroiqtisadi göstəricilərin dinamikasının daha çox qeyri-neft mənbələrinə söykəndiyini qeyd etməkdədir. Cari hesabatlar da məhz qeyri-neft sektorundakı əlavə dəyər mənbələrinin artım indikatorları nəzərə alınmaqla tərtib edilir. Bunu 2024-cü ilin birinci yarısındakı artım tempinin strukturu bir daha nümayiş etdirməkdədir. Belə ki, 2024-cü ilin yanvar-iyun aylarında ölkəmizdə 59,5 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub ki, yaradılmış əlavə dəyərin 0,6 faizi neft sektorunun, 6,9 faizi qeyri neft-qaz sektorunda qeydə alınıb. ÜDM istehsalının təxminən 40 faizi sənaye sahələrinin, o cümlədən qeyri-neft sənaye bölmələrinin payına düşür ki, bu da iqtisadi artım gücünün neftdən deyil, qeyri-neft sahələrindən qaynaqlandığını təsdiqləyir. Hazırda qeyri-neft sektorundakı artımın 70 faizə yaxınlaşması iqtisadi inkişafın hərəkətverici drayverlərinin işlək olmasından və daha da irəliləməsindən xəbər verir.

## Qeyri-neft sektoru iqtisadi gücün əsas sütununa çevrilir...

Qarşıdakı illərdə Azərbaycanın qeyri-neft sektoru üzrə gəlirlərinin yüksək artımında əsas mənbələrdən biri kimi işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası da mühüm rol oynayacaq. İşğaldan azad edilmiş ərazilərimizdə bir çox iqtisadi fəaliyyət sahələrinin inkişaf potensialının olmasını nəzərə alsaq, yaxın 4-5 ildə bu bölgənin iqtisadi artıma, xüsusilə də qeyri-neft iqtisadiyyatının potensiallarının güclənməsinə böyük töhfəsi olacaq. Proqnozlara əsasən, ortamüddətli dövrdə ölkədə qeyri-neft ÜDM-nin həcminin 2024-cü ilin sonuna 84,2 milyard manat, 2027-ci ildə isə 106,8 milyard manata qədər artacağı və real artım tempinin 4,6-5 faiz intervalında olacağı gözlənilir. 2027-ci ildə qeyri-neft sektoru üzrə yaradılan əlavə dəyərin payının 78,7 faizə çatacağı proqnozlaşdırılır. Neft-qaz ÜDM-nin payı isə cəmi 21,3 faiz təşkil edəcək.

Dünyanın ən aparıcı maliyyə qurumlarının, o cümlədən Dünya Bankı (DB), Beynəlxalq Valyuta Fondu, Asiya İnkişaf Bankı (AİB), eləcə də reytinq agentliklərindən "Fitch Group", "Moody's Ratings" Azərbaycanın yaxın 2-3 illik inkişaf proqnozlarını 3-4 faiz civarında ehtimal edən hesabatlar dərc edib.

Yeri gəlmişkən, bir müddət əvvəl "Fitch Ratings" Azərbaycanın xarici valyutada uzunmüddətli reytinqini "BBB-" səviyyəsində təsdiqləyib ki, bu da ölkəmizin tədiyyə balansının cari balansı, iqtisadi artımın əldə olunması, xarici maliyyə öhdəliklərinin çevik idarə olunması və digər amillər də ölkəmizin reytinq üzrə proqnozunun sabitliyini şərtləndirir və neft gəlirlərinin azalması fonunda belə Azərbaycanın cari balansının qənaətbəxş səviyyədə saxlanılmasını göstərir. Bu o deməkdir ki, "Fitch" Azərbaycanın maliyyə vəziyyətinin təmin olunmasında qeyri-enerji amillərinin təsiredici rolunu mühüm amil hesab edir və iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun yeni artım mənbələrinin səfərbər olunması istiqamətində yürüdülən siyasəti təqdir edir.

Bir məqamı da nəzərə çatdıraq ki, qeyri-neft sektorunda yaranan əlavə dəyərin əsas resurs mənbəyi və ya fiskal yığım gücü birbaşa qeyri-neft vergilərinin üzərində cəmləşməkdədir. Belə ki, 2024-cü ilin yanvar-iyul ayları vergi orqanının xəttilə dövlət büdcəsinə 10 milyard 272 milyon 795,7 min manat vergi daxil olub ki, onun təxminən 7 milyard manatı qeyri-neft-qaz sektorundan daxilolmalardır. Yəni vergi yığımları ümumi vergilərin 70 faizini təşkil edir. Bu səbəbdən hazırda ÜDM-də qeyri-neft sektorunun payı 70 faizə çatmaqdadır və bu amil həm də onu göstərir ki, ÜDM-in qeyri-neft bölməsi ilə vergi yığımlarının qeyri-neft sektorunda paralel olaraq artımlar gedir.



## İnflyasiya ilə bağlı proqnozlar da nikbindir...

"ING Group"un 2024-cü il üçün Azərbaycanda orta illik inflyasiya ilə bağlı proqnozu da nikbin ssenariyə əsaslanır. Şirkət cari ildə qiymət indeksinin 1,5 faiz, 2025-ci ildə 4 faiz, 2026-cı ildə isə 4,2 faiz səviyyəsində olacağını proqnozlaşdırır. Bu rəqəmlər digər beynəlxalq iqtisadi institutların proqnozlarına çox yaxındır. Belə ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) proqnozlarına görə, 2024-cü ildə Azərbaycanda orta illik inflyasiya 5 faiz, 2025-ci ildə 3,9 faiz təşkil edəcək. Beynəlxalq Valyuta Fondunun qiymətləndirməsinə görə qiymət indeksi cari ildə 3,5 faiz, 2025-ci ildə 5 faiz, növbəti illərdə isə 4 faiz olacaq. Dünya Bankının proqnozlarında isə inflyasiyanın 2024-cü ildə 3 faiz, 2025-ci ildə 3,5 faiz, 2026-cı ildə 4 faiz təşkil edəcəyi qeyd olunur.

Azərbaycan hökumətinin 2024-cü ildə inflyasiya gözləntiləri ilə bağlı proqnozu da yuxarıdakı rəqəmlərlə demək olar ki, eynilik təşkil edir. İqtisadiyyat Nazirliyinin ssenarisinə əsasən, qiymət indeksi 2024-cü ildə 5,3 faiz, 2025-ci ildə 4,9 faiz, 2026-cı ildə 4,4 faiz, 2027-ci ildə 4,2 faiz çərçivəsində müəyyənləşib. Ancaq hökumət birrəqəmli inflyasiya çərçivəsinə arxayın olmayaraq, qiymət indeksinə təsir edən daxili və xarici faktorları, o cümlədən anti-inflyasiya tədbirlərini prioritet kimi diqqətdə saxlayacaq. Mərkəzi Bankın bəyanatından da görünür ki, 2024-cü il ərzində hökumətin antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlərinə uyğun olaraq, bir sıra iqtisadi alətlərdən istifadə olunacaq.

**ELBRUS CƏFƏRLİ**

əvvəli ötən sayımızda

# Ata qətlinin sirri

## Fyodor Dostoyevskinin "Karamazov qardaşları" romanı haqqında

Monastırda rahiblərlə İvan Karamazov arasında maraqlı bir polemika baş verir. Söhbət İvanın yeni dərc olunmuş məqaləsindən düşür: gənc mütəfəkkir bu qənaətə gəlib ki, təbiət insanın boynuna başqalarını sevmək kimi bir öhdəlik qoymayıb, belə bir təbii qanun yoxdur. İvanın fikrincə, əbədiyyət yoxdursa, xeyir də yoxdur; əgər indiyə qədər yer üzündə sevgi deyilən bir anlayış, hiss olubsa, bu anlayış da, bu hiss də təbiətin hökmüylə yox, insanın öz ruhunun ölməzliyinə inanması sayəsində yaranıb. Bu inamı onun qəlbindən silsən, həmin andaca insanın başqalarına sevgisi, ümumən yaşamaq istəyi yoxa çıxacaq. Ölməzliyə inamı itəndən sonra insan üçün əxlaq, mənəviyyat anlayışı qalmayacaq, hər əməl ondan ötrü yolverilən, icazəli, məqbul olacaq - eqoizmdən tutmuş zalımlığa, qəddarlığa, qatilliyə qədər hər əməl. Həm də bütün bunlara nəinki rüsxət veriləcək, hətta başqasına əzab çəkdirmək ən zəruri, ən faydalı bir hal kimi təqdir olunacaq, qəhrəmanlıq sayılacaq.

Necə də Nitsşenin moizələrinə bənzəyir, eləmi? Yeri gəlmişkən, böyük alman filosofu Dostoyevskinin məhz mürtəce düşüncələrindən, onun mənfi qəhrəmanlarına yüklədiyi aqressiv ideyalardan təsirlənmişdi, daha xristianlığın təbliğatını aparan fikirlərindən yox...

Fyodor Pavloviç sonda keşişləri də ələ salır, müdrik Zosima deyir ki, onun təlxəkliyi, çıxardığı hoqqalar öz xislətindən, əməllərindən utandığına görədir. Sonra qoca rahib Dmitrinin qarşısında diz çöküb alnını yerə dirəyir, onun gələcək əzabları qarşısında sitayişə durur. İvana isə deyir ki, onun qəlbində məsələ hələlik öz həllini tapmayıb, gəncin axtarışları müsbət sonluqla nəticələnməsə belə mənfi qütbə də yuvarlanmayacaq.

Qonaqlar dağılışandan sonra müdrik Zosima Aleksey Karamazova da son tövsiyələrini verir. Onun fikrincə, müridi artıq qaranlıq hücrəsindən işıqlı dünyaya çıxmalı, aldığı dərsləri gerçək həyatda, insanlar arasında sınaqdan keçirməlidir. Alyoşa evlənib arvad-uşaq yiyəsi olmalı, Tanrıya xidmət eləməli, qardaşlarını tək buraxmamalıdır. Dmitri kor ehtirasının, İvan şübhəcil ağlının hökmü altındadır, hər iki qardaşda kəskin ruh çatışmazlığı var. Bu dərin boşluğu doldursa, kiçik qardaş doldura bilər, çünki böyük qardaşlarından fərqli olaraq onun təkcə bioloji yox, mənəvi atası da var.

İncil buyurur ki, bu dünyada heç kimə ustad deməyin, çünki sizin bir ustadınız var, o da Məsihdir; heç kimə ata da deməyin, çünki hamınızın bir atası var, o da göylər səltənətinin hökmdarı Tanrıdır.

***

Alyoşa mürşidinin tövsiyələrini dinləyəndən sonra atasının evinə yollanır. Evə çatmamış ata mülkünün qonşuluğundakı bağçadan Dmitri onu səsləyir. Mitya burada qarovul çəkir, atasının qapısını güdür ki, Qruşenka onun yanına gəlsə, xəbər tutsun. Qardaşlar arasında maraqlı söhbət alınır. Dmitri deyir ki, gözəllik çox xatalı, dəhşətli şeydir, gözəllik olan yerdə Allahla Şeytan çarpışır, savaş meydanı isə insan qəlbidir. Mitya nişanlısı Katerina İvanovnanın Moskvada yaşayan bacısına göndərmək üçün ona verdiyi üç min rublun yarısını Qruşenkanın yolunda havaya sovurub, indisə xəcalət çəkir, nə olur olsun həmin pulu düzəldib yerinə qoymağa çalışır. Böyük qardaş Alyoşadan xahiş eləyir ki, nişanlısı Katyanın evinə gedib onun qıza salamını, hörmət-ehtiramını çatdırsın, desin Mitya bir daha onun gözünə görünməyəcək. Qruşenkaya qalanda, onun gəlişi barədə Dmitriyə lakey Smerdyakov xəbər çatdıracaq, bu görüşün, izdivacın qarşısını başqa cür ala bilməsə, Mitya atasını öldürəcək.

Katerina İvanovnanın evində Alyoşa Qruşenkaya rast gəlir. İki hikkəli, isterik, infernal qadın əvvəlcə bir-birinə mehribanlıq göstərir, hörmət, məhəbbət izhar eləyir; guya bunlar Dmitri məsələsində artıq razılığa gəliblər, Qruşenka beş il əvvəl onu atıb getmiş, indi yenidən buralara dönən polyakın yanına qayıdacaq, Mitya Katyanın olacaq. Fəqət az keçmiş Qruşenkanın ləçərliyi tutur, Dmitrinin nişanlısıyla məzələnməyə, onu alçaltmağa başlayır. Nəticədə Katerina İvanovna onu evindən qovur. Ümumiyyətlə, Dostoyevski cəhənnəm mələklərinin vurğunudur, özünü də, sevimli qəhrəmanlarını da onlara əzdirməkdən həmişə zövq alıb. Ömrünün yetkin çağında Anna Qriqoryevna kimi müqəddəs bir qadına calansa da, onu əsas qadın qəhrəmanlarından birinin prototipi seçmək nədənsə ağlına gəlməyib...

Atasının evinə gedən Alyoşa Fyodor Pavloviçlə İvan Fyodoroviçi süfrə başında konyak içən görür. Orada yenə Allahdan, dindən, ölümsüzlükdən söhbət düşür, lakey Smerdyakov İvanın fikirlərinə, xüsusən də onun "Allah yoxsa, hər əmələ rüsxət var" tezisinə diqqətlə qulaq verir. Yaşlı lakey Qriqori həmişəki kimi Smerdyakovdan iyrənir, onun küfrünə bulaşmaqdan bir mömin xofuyla çəkinir. Ata Karamazov özü də oğlu İvandan eymənir, onun baxışlarında, fikirlərində mübhəm, qorxulu əlamətlər sezir, bu barədə heç kimə heç nə deməsə də, saf, müqəddəs Alyoşaya bəzi şübhələrini sızdırır. Əslində, İvan Dmitrinin nişanlısına göz yetirməklə qardaşının yox, atasının yolunda əngələ çevrilib, qardaşının atasına savaş açmasına bir az da təkan verib, daha münbit şərait yaradıb.

Mitya isə siyirməqılınc savaşa hazır durub, Qruşenkanın Fyodor Pavloviçin ayağına gəlməyini gözləyir. Qəfil Dmitri qaranəfəs içəri təpilir - o bu səmtə gələn hansısa qadını Qruşa ilə səhv salıb. Lakeylər, qardaşları onu axtardığının bu evdə olmadığına inandırana qədər gözü qızmış Mitya sərxoş atasını möhkəm əzişdirir, kişini onun əlindən güclə alırlar.

***

Roman dörd hissə, on iki kitab, bir epiloqdan ibarətdir. İkinci hissəyə aid beşinci kitab "Pro və contra" ("Lehinə və əleyhinə"), həmin kitabın dördüncü fəsli isə "Qiyam" adlanır. Bu, romana açar olan fəsillərdən biridir. İvanla Alyoşa (ağılla ruh) traktirdə mükaliməyə girirlər. Həmin dəqiqələrdə o traktir kainatın mərkəzinə çevrilir. İvan Karamazov qardaşına bütün içini açıb tökür, heç kimlə paylaşmadığı fikirlərini onunla bölüşür. İvan deyir yer kürəsi qabığından nüvəsinəcən göz yaşıyla islanıb. Deyir ki, Allahı yox, Allahın yaratdığı dünyanı qəbul eləmir; Allaha, onun yaratdığı nizama, onun insanlara açmadığı sirrinə, həyatın hansısa mənası, məntiqi olduğuna, daha nələrə, nələrə... inanır, di gəl, onun yaratdığı dünyanı qəbul eləyə bilmir. Bir körpə səmimiyyətiylə əmindir ki, bəşəriyyətin ən dərin yaraları haçansa qaysaq bağlayıb sağalacaq, insanlar arasındakı düşmənçilik məzhəkəsi, savaş komediyası bir gün ilğım kimi yoxa çıxacaq, nəhayət, dünyanın sonunda, əbədi harmoniyanın bərqərar olduğu anda elə bir möcüzə baş verəcək, elə bir qüvvə zühur eləyəcək ki, onun nurundan bütün yaralı könüllərə məlhəm çilənəcək, şər əməllər nəinki bağışlanacaq, hətta hər cür qəddarlığa, amansız rəftara bəraət veriləcək. Qoy bütün bu arzular çin çıxsın, ancaq İvan yenə də belə dünyanı tanımır, tanımaq da istəmir.

İvan Karamazovun fikrincə, İsa sevgisi, xristian məhəbbəti yer üzündə gerçəkləşməsi mümkün olmayan bir möcüzədir. Alyoşa qardaşının sözünü etirazla qarşılayanda İvan ona bir olmuş əhvalat danışır:

İstefada olan general, yüzlərlə tula saxlayan harın mülkədar şikara çıxmağa hazırlaşır. Ovqabağı sevimli tulasının axsadığı generalın gözündən yayınmır. İti kimin yaraladığını soruşanda ona qulluqçulardan birinin səkkiz yaşlı oğlunu nişan verirlər: uşağın atdığı daş tulanın ayağını zədələdiyindən it axsamağa başlayıb. General qəzəbindən at kimi fınxırır, çilənin soyuğunda cinayətkarı lüt soyundurmağı əmr eləyir. Sonra anasının gözünün qabağındaca tulaları uşağın üstünə qısqırdıb tifili itlərə parçaladır...

İvan Alyoşadan soruşur: indi səncə, bu generala hansı cəzanı vermək lazımdır? Əhvalatdan bərk sarsılmış Alyoşa həyəcanla deyir: güllələmək lazımdır! Şübhəbaz İvana bu cavab xoş gəlir, mömin Alyoşa emosional vəziyyətdə səhvə yol verdiyini anlayıb pərt olur. İvan deyir qiyamət günü o uşağın anasının övladının qatiliylə barışmasını, bir harmoniyada qovuşmasını istəmir, çünki Tanrının harmoniyası itlərə yedirdilmiş körpənin bir damla göz yaşına dəyməz. Alyoşa İvanın mövqeyini qiyam kimi dəyərləndirir, İvansa deyir ki, olsun, o elə qiyam ovqatıyla yaşamaq istəyir. Alyoşa qardaşından soruşur: sən başındakı bu cəhənnəmlə necə yaşayacaqsan? İvan deyir ki, paralel xətlərin kəsişdiyi dərgahı gözləriylə görsə belə yenə qəbul eləməyəcək, ona görə də belə harmoniyadan könüllü imtina eləyir, Tanrının dərgahına biletini geri qaytarır.

Sonra İvan Alyoşaya "Böyük inkvizitor" adlı hələ yazılmamış poemasının məzmununu danışır. On altıncı əsr İspaniyasının Sevilya şəhəri. Doxsan yaşlı inkvizitor dinsizlikdə suçlanan kafirləri oda atdırır. Bu vaxt İsa Məsih ikinci dəfə zühur eləyir. Hamı onu tanıyır, hər kəs ondan nicat umur. Qəzəbli kardinal peyğəmbəri zindana saldırır. İşini başa vurandan sonra inkvizitor axşam türməyə peyğəmbərin görüşünə gedir, onu inandırmağa çalışır ki, insanlara inanmaqda, onlara azadlıq vəd eləməkdə səhvə yol verib. Bəşər övladının xeyirlə şəri bir-birindən ayırmaq, ağı qaradan seçmək, ona verilmiş azadlıqdan yararlanmaq imkanı yoxdur. Onların yerinə bu işi kilsə özü görməlidir, insanların taleyinə ruhanilər sərəncam verməlidir. Bəşəriyyət insan sürüsüdür, bu sürüyə nəyin faydalı, nəyin zərərli olduğunu onu otaranlar bilir. Məsih bu zavallılara azadlıq boyun olmuşdu, onlarsa azadlığın nəyə yaradığını qanmırlar. Əvəzində kardinal onlara çörək verir, onları yaşadır. İnkvizitor Məsihə deyir ki, daha sənə ehtiyacımız yoxdur, get, bir də heç vaxt qayıtma. İsa kardinala cavab vermir, qocanın dodaqlarından öpüb dinməzcə qeybə çəkilir...

***

Qardaşlar ayrılandan sonra İvan atası evinə qayıdır. Yolda Smerdyakovla qarşılaşır. Onların arasında gedən üstüörtülü dialoq ayrıca bir tədqiqatın mövzusudur. Dialoqun mahiyyəti budur: İvan sabah harasa getsə yaxşıdır, çünki bu günlərdə atasının başına iş gələ bilər; Smerdyakovun sabah ürəkgetməsi tuta bilər, tutsa, onun anlaqsız vəziyyətdə olması iki gün çəkəcək; ata Karamazov Qruşenkanı alsa, qardaşlar külli sərvətdən məhrum olacaqlar; Fyodor Pavloviçin Qruşenka üçün ayırdığı üç min rubl filan yerdədir; Smerdyakov Dmitriyə parolu verib, Mitya qızı atasının yanında tutsa, nə baş verəcəyi bəllidir; bir halda ki, Allah yoxdur, hər əmələ icazə var. Həddini aşmış nökərin qudurğanlığı, törədiləcək cinayətə arsızca işarə vurması İvanın qüruruna toxunsa da, Smerdyakovun niyyətini söhbətin altından üstünə çıxarmağa cəhd göstərmir. Bundan sonra İvan sabah Moskvaya gedəcəyini elan eləyir.

Alyoşa isə artıq canını tapşırmış mürşidinin hücrəsinə gedir. Hamı möcüzə gözləyir, guya qocanın meyidi gül qoxuyacaqmış. Fəqət təbiət qanunları işini görüb, Zosimanın cəsədi iylənməyə başlayıb. Bu zaman Alyoşa ilk dəfə Allaha asi düşür, möcüzə göstərmədiyinə görə tanrısından inciyir. Ütük qəzetçi, xəbərdaşıyan Rakitin onun bu halını fövtə verməyib kiçik Karamazovu Qruşenkanın evinə aparır. Qadın Alyoşanın dizinin üstündə oturub oğlanı şirnikləndirməyə çalışır, ancaq Zosimanın öldüyünü eşidəndə ciddiləşib dua eləyir, xaç çevirir. Məlum olur ki, Rakitin Alyoşanı Qruşanın yanına gətirməyin müqabilində qadınla iyirmi beş rubldan mərc gəlibmiş.

Qruşenka isə çox qayğılı, həyəcanlıdır. Beş il əvvəl onu aldadıb atmış polyak zabiti Mokroye deyilən kənddəki meyxanada əylənib onu gözləməkdədir. Qadının taleyi indi verəcəyi qərardan asılıdır. Xeyli tərəddüddən sonra o, getməyi qərara alır.

Dmitri isə bu müddətdə üç min pul tapmaq üçün hər yerə baş vurur. Onun niyyəti Qruşenkanı götürüb bu yerlərdən uzaqlaşmaq, haradasa yeni, məsud həyata başlamaqdır. Qadını heç yerdə tapmayanda Mitya onun atasının yanında ola biləcəyini düşünür, gecəylə gedib evin pəncərəsindən boylanır, pəncərəni Smerdyakovun dediyi sayaq döyür. Qruşanın buraya gəlmədiyinə əmin olandan sonra Mitya qaçmağa üz qoyur. Lakey Qriqori duyuq düşüb onu tutmağa çalışır, Dmitri əlindəki mis əşyayla ona zərbə endirir, sonra qocanı qan içində qoyub aradan çıxır. Qruşenkanın harada olduğunu qulluqçusundan öyrənən Mitya gecəylə özünü meyxanaya çatdırır. Səhərəcən yeyib-içib, çalıb-oynayıb əylənirlər. Sabah ertə Dmitri Karamazov atasını öldürmək ittihamıyla həbs olunur.



*F.Uğurlu*

davamı növbəti sayımızda

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Ermənistanın müharibə cinayətləri



*Yeganə BAYRAMOVA*

İkinci Qarabağ Müharibəsinin 4-cü ildönümünə sayılı günlər qalıb. Həmin gün-27 sentyabr həm də şəhidlərimizin anım günü kimi qeyd edilir. Bundan başqa, 27 sentyabr Böyük Zəfərə gedən yolun başlanğıcıdır. Ona görə də bu tarix xalqımız üçün xüsusi əhəmiyyət kəsb edir. Çünki 44 günlük müharibənin yekununda təkcə Azərbaycanın ərazi bütövlüyü və suveren hüquqları bərpa olunmadı, həm də dünya daha bir faşist ideollogiyasından xilas oldu.

Cəmi 44 günə Azərbaycan nəinki, torpaqlarını işağaldan azad etdi, həm də Ermənistanın hərbi kapitulyasiyasına nail oldu. Təbii ki, bu qələbənin arxasında ordu-xalq, xalq-hakimiyyət birliyi dayanırdı. Bu qələbə üçün 3 mindən artıq qəhrəman soydaşımız canından, minlərlə soydaşımız sağlamlığından keçdi. Ordumuzun şücaəti, Ali Baş Komandanın qətiyyəti qarşısında aciz qalan Ermənistan bundan sonra Rusiyanın vasitəçiliyi ilə noyabrın 10-a keçən gecə üçtərəfli Bəyannaməni imzaladı.

Mövzu barədə “Yeni Azərbaycan”a danışan hərbi ekspert Ədalət Verdiyev bildirib ki, bu gün Azərbaycanın ərazi bütövlüyü və suveren hüquqları bərpa olunsa da, yaralarımız hələ də sağalmayıb: “1988-ci ildən başlayaraq, Qarabağda qanunsuz fəaliyyət göstərən erməni silahlı hərbi birləşmələri və Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən xalqımıza qarşı çoxsaylı amansızlıqların şahidi olmuşuq. Qarabağ və işğal olunmuş digər ərazilərdə yaşayan azərbaycanlıların doğma torpaqlarından didərgin salınması, yaşayış məntəqələrində və dövlət obyektlərində maddi sərvətlərin, mədəniyyət abidələrinin talanması və dağıdılması, azərbaycanlı əsir və girovlara dəhşətli işgəncələr verilməsi faktı var. Bundan başqa, azərbaycanlıları milli bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə soyqırım, deportasiya, işgəncə və s. sülh və insanlıq əleyhinə cinayətlər, habelə qəsdən adam öldürmə, təxribat, terrorizm və başqa ağır cinayət hadisələri törədilib”.

Ə.Verdiyev qeyd edib ki, rəsmi statistikaya görə, 2020-ci ildən ötən ilə qədər uzunluğu 500 kilometrədək olan yeni minalanmış zonalar yaradılıb, separatçılar tərəfindən Azərbaycanın ərazisinə yenidən minalar basdırılıb: “Bunun məsuliyyəti Ermənistanın üzərinə düşür. Minaların təmizlənməsində üzləşdiyimiz çətinliklər, eyni zamanda yenidənqurma və bərpa işlərinə əngəl yaradır, 800 min keçmiş məcburi köçkünün öz evlərinə qayıtmasına ciddi maneə törədir. Bu günə qədər aparılan minatəmizləmə prosesi nəticəsində 140 min hektara yaxın sahə 119 min 946 mina və partlamamış hərbi sursatlardan təmizlənib.

Təbii ki, Ermənistanın dövlət səviyyəsində Azərbaycana qarşı həyata keçirdiyi

## İfşa edilir...

vandaalizm siyasətini dünya ictimaiyyətinin diqqətinə çatdırmaq üçün Prezident İlham Əliyevin rəhbərliyi altında davamlı iş aparılır. Çünki Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlər bütövlükdə sivilizasiya qarşı törədilmiş qəsddir, cinayətddir”.

Ekspertin sözlərinə görə, Azərbaycan ermənilərin müharibə cinayətlərinin ifşası istiqamətində müvafiq addımlar atır. O, qeyd edib ki, müharibə ilə bağlı ən uyğun hüquq norması beynəlxalq humanitar hüquqdur ki, yalnız silahlı münaqişələr zamanı istifadə olunur: “Beynəlxalq humanitar hüquq yalnız xüsusi hüquqi meyarlara əsaslanan silahlı münaqişələr kimi müəyyən edilən hallarda tətbiq edilir. Azərbaycan da ermənilərin müharibə cinayətlərinin ifşasında beynəlxalq humanitar hüquqdan geniş istifadə edir. Beynəlxalq humanitar hüquqda müfəssəl müharibə qaydaları və döyüş əməliyyatlarında iştirak etməyən və ya artıq iştirak etməyən şəxslərin müdafiəsi qaydaları mövcuddur. Beynəlxalq humanitar hüquq ilk növbədə münaqişə tərəflərinin, yəni dövlətlərin və qeyri-dövlət silahlı qruplarının məsuliyyətinə aiddir. Soyqırım və insanlığa qarşı cinayətlər beynəlxalq cinayətlərin növləridir. Bu anlayışlar İkinci Dünya müharibəsindən sonra əvvəlki illərdə törədilmiş beynəlxalq cinayətləri mühakimə etmək üçün ortaya çıxıb. Hazırda hər iki cinayət növü Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunda kodlaşdırılıb. 1948-ci il Soyqırımı Konvensiyası da bütün dövlətlər üçün məcburi olan adi beynəlxalq hüquq sayılır. Ermənistan bütün bu tələbləri pozub. Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində darmadağın edilən Ermənistan silahlı qüvvələri döyüş meydanındakı acınacaqlı məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən mülki infrastruktur obyektlərini hədəf seçmişdi. Düşmən müxtəlif növ silahlarla, o cümlədən artilleriya və ballistik raketlərlə yaşayış məntəqələrini atəşə tutaraq, mülki şəxsləri vəhşicəsinə qətlə yetirmiş, əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə irimiqyaslı zərər vurmaqla sülh və insanlıq əleyhinə cinayətlər törətmişdi. İndi Azərbaycan bütün bunlara görə Ermənistanın beynəlxalq hüquq əsasında cavab verməsi üçün müvafiq fəaliyyət həyata keçirir”.


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti üzrə hazırlanmışdır**


# Kriminalistikanın qızıl kəşfi

## Qanlı barmaq izi

1892-ci ilin 19 iyununda, qızmar bir yay günündə Argentinanın dəniz sahilində yerləşən Nekoçea şəhərində qan donduran qətl hadisəsi baş vermişdi, 4 və 6 yaşlı iki uşaq müəmmalı şəkildə qətlə yetirilmişdi. İşdən qayıdan ana Françeska Roxas uşaqlarının meyitini öz evində tapmışdı. Gördüklərindən dəhşət yaşayan qadın özünə gəldikdən sonra dərhal polisə gedərək şübhələndiyi şəxs barədə məlumat vermişdi. Françeskanın sözlərinə görə, o, evə yaxınlaşanda tanışı Pedro Velaskesin evdən çıxıb qaçdığını görübmüş. Françeska öz ifadəsində bildirib ki, ola bilsin o, Pedronun evlilik təklifini rədd etdiyi üçün kişi bu yolla ondan amansız qisas alıb.

## Dəhşətli qətlin inanılmaz səbəbi

Bu ağır cinayət bütün Argentinanı ayağa qaldırır. İstintaq zamanı Pedro Velaskes Françeska Roxasla aralarında evlilik söhbətinin olduğunu etiraf edib, lakin uşaqların öldürülməsi ilə bağlı ittihamı qəti şəkildə qəbul etməyib. Cinayəti boynuna alması üçün polis hətta ona işgəncə verib. Pedro Velaskes saatlarla sorğu-sual edilib, dəfələrlə döyülüb. Amma nəticə eyni olub, Pedro uşaqları öldürmədiyini bildirib. Psixoloji reaksiyasını izləmək üçün onu bir gecə öldürülmüş uşaqların yanında saxlayıblar. Ancaq heç bir üsul işə yaramayıb, Pedro cinayəti üstünə götürməyib.

Aylar keçir, istintaq qəti qənaətə gələ bilmir. Vəziyyət dalana dirənəndə təcrübəli detektiv Eduardo Alvares La Plata paytaxtdan əyalətə - Nekoçea polisinin köməyinə gəlməli olur. O, uşaqların ölü tapıldığı otağın qapısında kiçik qəhvəyi ləkə görür. Cinayətkar özü də bilmədən qanlı baş barmağını qapıya basaraq iz buraxmışdı. Barmağın papilyar xətləri aydın görünürdü. Alvares bu detaldan yararlanmaq qərarına gəlir və qapının barmaq izi düşən hissəsini kəsib götürür. Bununla da detektiv dünyada ona qədər, demək olar, heç kimin ağlına gəlməmiş üsuldan istifadə etməyə girişir. O, qanlı ləkədəki barmaq izini cinayətdə şübhəli bilinən Velaskesin barmaq izləri ilə müqayisə edir və nəticədə aydınlaşdırır ki, qatil Pedro deyil. İşi araşdırdıqca Alvares uşaqların anasından şübhələnməyə başlayır. Şayiələrə görə, qadın həqiqətən sevgilisi Pedroya ərə getmək istəyirmiş. Lakin kişi qeyri-qanuni övladlarına görə Françeska ilə ailə qurmaqdan imtina edibmiş. Qadın düşünüb ki, uşaqlar olmasa, Pedro Velaskeslə maneəsiz evlənə bilər.



Alvares bundan sonra hadisəyə aidiyyəti olan ikinci şəxsin, yəni ananın barmaq izlərini götürür. Qadının barmaq izləri qapının üstündəki qanlı barmaq izinə uyğun gəlir. Lakin bu da Françeskanın günahını sübut etmək üçün yetərli deyildi. Müstəntiqin fikrinə görə, dəhşətli cinayətə şahid olan ana özünü itirərək qan içində ora-bura vurnuxa, istənilən əşyaya əl izini qoya bilərdi. Ancaq gərgin istintaq suallarından və barmaq izlərinin bir neçə variantda üst-üstə düşməsindən sonra ana Françeska öz uşaqlarını öldürdüyünü etiraf edir. O, bu ağır cinayəti evlənmək xatirinə törətdiyini boynuna alır. Amansız qətlə görə Françeska ömürlük həbs cəzasına məhkum edilir. Bununla da tarixdə ilk dəfə barmaq izi üsulu ilə ağır cinayət əməlinin üstü açılır.

## Barmaq izindən qulaq izinə qədər

Əslində, Alvaresin istifadə etdiyi bu üsul şəxsən onun özü tərəfindən icad olunmamışdı. Hələ 19-cu əsrin ortalarında Benqaliyada (Hindistan) xidmət edən britaniyalı zabit Ser Uilyam Herşel sənədlərə imza atmaq əvəzinə barmaq basırdı. O deyirdi ki, barmaq izi dəyişmir, ona görə də onlar şəxsiyyəti identifikasiya etmək məqsədilə etibarlı üsul kimi bu vasitədən istifadə edirlər. Barmaq izi ilə imza atmaq savadsız insanların da işinə yarayırdı. 1880-ci ildə Herşel papilyar naxışlar (barmaq izləri) və onların əsas xüsusiyyətləri haqqında böyük bir məqalə yazdı.

Barmaq izlərinin elmi əsaslarla öyrənilməsi isə antropoloq və psixoloq Frensis Qaltona (Çarlz Darvinin əmisi oğlu) aiddir. Qalton 8000-dən çox əl izini araşdırdı və onların hər birinin unikal, həm də dəyişməz olduğu qənaətinə gəldi. O hesab edirdi ki, barmaq izinin təkrarlanma ehtimalı sıfıra bərabərdir, bəlkə də milyardda bir üst-üstə düşən barmaq izi tapıla bilər. Həmin dövrdə Yer kürəsində cəmi 1,5 milyard insan yaşadığına görə bu fakt, əslində, təkrarlanmanın olmaması demək idi. Artıq kriminalistlər əmin oldular ki, istənilən şəxsi barmaq izindən müəyyən etmək mümkündür.

Qaltonun bu tədqiqatı La Plata Mərkəzi Polis Departamentinin detektivi Xuan Vucetiçin diqqətini çəkir. Elmi yeniliklərlə maraqlanan detektiv britaniyalı alimin bu kəşfini tətbiq etmək qərarına gəlir və dünyada ilk dəfə olaraq məhbusların barmaq izlərinin məlumat bazasını toplamağa başlayır. O öz həmkarlarına da barmaq izi üsulunu öyrədir. Françeska Roxasın cinayətinin üstünü açan Eduardo Alvares də bu işdə Vucetiçə kömək edir. Bundan əlavə, Xuan Vucetiç məhkəmə tətbiqləri üçün barmaq izlərini təsnifatlandırmaq məqsədilə ilk sistemi inkişaf etdirir.

Beləliklə, Vucetiç və Alvaresin uğurları dünya miqyasında tanınmağa doğru irəliləyir. Artıq Avropanın və Yeni Dünyanın kriminalistləri öz işlərində təzə üsulu inamla tətbiq edirlər. Bununla da kameranın olmadığı bir zamanda barmaq izləri ilə cinayətlərin açılması kriminalogiyada həqiqətən bir dönüş yaradır.

Zaman keçdikcə dünyada hər şey təkamülə uğrayır, elmin hər sahəsi təkmilləşməyə doğru gedir. Alimlər bu üsulu da təkmilləşdirdilər və müxtəlif kimyəvi vasitələrdən istifadə etməklə gözə görünməyən izləri də tapmağı öyrəndilər. Daha sonra barmaq izləri məhkəmə traseologiyasının (izlər elmi) bir sahəsinə çevrildi. Artıq detektivlər cinayət yerində ayaqların, ovucların, dizlərin, dişlərin, dodaqların və hətta qulaqların belə izlərini çıxarmağa başladılar.

## ABŞ və Rusiyada barmaq izi üsulu ilə açılan ilk cinayət işi

Barmaq izi Birinci Dünya müharibəsindən qısa müddət əvvəl bütün dünyada məhkəmə-tibb elminin əsas qoluna çevrildi. ABŞ-da detektivlər ilk barmaq izini 1910-cu ildə araşdırmışdılar.

Günlərin bir günü Çikaqo ştatında növbəti qətl hadisəsi baş verir. Klarens Hiller adlı kişi gecə arvadının və qızının qışqırığına oyanır. Demə, onlar yatarkən evə oğru giribmiş. O, yataqdan qalxaraq yan otaqdakı silahlı oğrunun üstünə cumur və onunla əlbəyaxa olur. Nəticədə hər ikisi pilləkəndən birinci mərtəbəyə yıxılır. Oğru ev sahibinə üç dəfə atəş açaraq qaçır. Səs-küyə gələn qonşular Klarensin girişdə öldürüldüyünü görürlər.

Çox keçmədən polis əynində qanlı palto və əlində revolver olan qatili tapıb üzə çıxarır. Bu, afro-amerikalı Tomas Cenninqs adlı birisi imiş. Cinayətkar həmin hadisədən ay yarım əvvəl həbsxanadan çıxıbmış. İstintaq zamanı onun cinayət əməlinin əsas sübutu barmaq izləri olur.

Az sonra yeni metod Rusiyaya da gəlib çıxır. Barmaq izləri əsasında araşdırmalar burada 1912-ci ildən başlayıb. Bu üsulla ifşa edilən ilk cinayətkar Alekseyev soyadlı bir şəxs olur. Qətl işində polisin şübhələndiyi iki nəfər - Alekseyev və Şunko soyadlı şəxslər imiş. Onlardan heç biri cinayəti boynuna almır.

Dalana dirənmiş işi kriminalist Lebedev çözür. O, ölkədə ilk dəfə olaraq barmaq izlərini tutuşdurmaqla cinayətkarın kimliyini ortaya çıxarır. Qətldə istifadə edilmiş şüşə qırığının üzərində Alekseyevin baş barmağının izi aşkar olunur. Cinayətkar təkzibolunmaz sübut qarşısında qətli törətdiyini boynuna alır.

Barmaq izi üsulu polisin və hüquq-mühafizə orqanlarının işini xeyli dərəcədə asanlaşdırsa da, cinayətkar aləm də əməlindən qalmır, buna qarşı tədbirlər görür. Peşəkar cinayətkarlar iz buraxmamaq üçün cinayət başında əlcəkdən istifadə edirlər. Yaxud müasir izləmə kameralarına düşməmək üçün maska taxırlar. Kriminal aləmin bu cür əks-tədbirlərinə baxmayaraq istintaq-axtarış sahəsində də yeni-yeni cihazlar və metodlar yaranıb inkişaf edir.

*Murad Köhnəqala*

## İtmişdir

Qasımov Rza Rauf oğlunun 124742 nömrəli veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4788
Sifariş: 1837
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova